QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 095 (5815) **25 may** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Paytaxt Bakı inkişafının yeni dövrünü yaşayır

## *İlham Əliyev: "Bakı parkların sayına görə dünyada lider şəhərlərdən biridir"*




Səh 4

"Azərbaycan ilə Rusiya arasında strateji tərəfdaşlığa əsaslanan ikitərəfli münasibətlər mövcuddur"



2

Donald Tramp: ABŞ ilə Azərbaycan arasında bir çox ortaq maraqlar üzərində qurulmuş güclü tərəfdaşlıq mövcuddur



2

"Ramazan ayı insanları sülhə, həmrəyliyə, əxlaqi saflığa dəvət edən mübarək aydır"



3

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunda olub



3

Əli Əhmədov: "Cümhuriyyəti quranlar bugünkü Azərbaycanla fəxr edərdilər"



5

"Ermənistandakı siyasət tam şəkildə iflasa uğrayıb"



5

5

Erməni əsilli gimnast: Mxitaryanın yerində olsaydım, komandamla birgə Bakıya gələrdim



6

YAP Gənclər Birliyinin üzvləri Milli Məclisdə olublar



14

Bəs sən haradaydın, Əli Kərimli?



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

25 may 2019-cu il

# “Azərbaycan ilə Rusiya arasında strateji tərəfdaşlığa əsaslanan ikitərəfli münasibətlər mövcuddur”

*Prezident İlham Əliyev Rusiyanın Əmək və Sosial Müdafiə nazirini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də Rusiya Federasiyasının Əmək və Sosial Müdafiə naziri Maksim Topilini qəbul edib. AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycan ilə Rusiya arasında strateji tərəfdaşlığa əsaslanan ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, sosial təminat sahəsində əlaqələr, təcrübə mübadiləsi məsələləri müzakirə edildi.

Görüşdə Rusiyada və Azərbaycanda sosial sahənin müxtəlif istiqamətləri ilə bağlı həyata keçirilən islahatlardan danışıldı, təcrübə mübadiləsinin aparılması üçün yaxşı imkanların olduğu qeyd edildi. Eyni zamanda, Maksim Topilinin səfəri zamanı müvafiq nazirliklər arasında imzalanacaq sazişin əhəmiyyətinə toxunuldu. Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## Donald Tramp: ABŞ ilə Azərbaycan arasında bir çox ortaq maraqlar üzərində qurulmuş güclü tərəfdaşlıq mövcuddur



ABŞ Prezidenti Donald Tramp 28 May - Respublika Günü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.

AZƏRTAC xəbər verir ki, məktubda ABŞ Prezidenti 1918-ci ildə həmin gün Azərbaycanın müstəqilliyinin elan olunduğunu və Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığını qeyd edib. O vurğulayıb ki, yüz ildən artıq bir vaxt keçdikdən sonra Amerika Birləşmiş Ştatları bütün azərbaycanlılarla birlikdə bu nailiyyətləri qeyd etməkdən məmnundur.

“Dövlətlərimiz arasında bir çox ortaq maraqlar üzərində qurulmuş güclü tərəfdaşlıq mövcuddur. Azərbaycanın beynəlxalq təhlükəsizliyə verdiyi töhfələri və Cənub Qaz Dəhlizi təşəbbüsünü irəli sürməklə Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində Sizin liderliyinizi dəyərləndirirəm. Azərbaycanda islahatlar istiqamətində, xüsusilə də qanunun aliliyi sahəsində Azərbaycan xalqının mənafeyinə xidmət edəcək və əməkdaşlığımızın dərinləşməsi üçün imkanlar yaradacaq bütün addımları alqışlayıram. Həmçinin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə və dayanıqlı həlli istiqamətində ATƏT-in Minsk qrupu prosesində Sizin şəxsi iştirakınızı təqdir edirik.

Tərəfdaşlığımızın gələcək illərdə də inkişaf etməsini səmimiyyətlə arzulayıram. Xahiş edirəm bu əlamətdar ildönümü münasibətilə bir daha təbriklərimi və ən xoş arzularımı qəbul edəsiniz”, - deyə Prezident Donald Tramp təbrik məktubunda bildirib.

## Baronessa Emma Nikolson: “Azərbaycan-Böyük Britaniya əlaqələri yüksək səviyyədədir”



***Azərbaycan-Böyük Britaniya münasibətləri böyük tarixə malikdir. Bu gün də ölkələrimizin arasında əlaqələr yüksək səviyyədədir. Bu sözləri AZƏRTAC-a açıqlamasında Böyük Britaniyanın Baş Nazirinin ticarət elçisi Baronessa Emma Nikolson deyib.***

Baronessa Emma Nikolson deyib: “100 il bundan əvvəl yaranan dostluq münasibətləri bu gündə uğurla davam etdirilir. İstər sənaye sahəsində, istərsə də digər sahələrdə Azərbaycan Böyük Britaniyanın ən böyük tərəfdaşlarından biridir. Heç bir amil bu münasibətləri poza bilməz”.

## XİN: “ABŞ vətəndaşının adı arzuolunmaz şəxslər siyahısından çıxarılıb”



ABŞ vətəndaşı Robert Qiş Xarici İşlər Nazirliyinə məktubla müraciət edərək adının “Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfər etmiş əcnəbilərin siyahısı”ndan çıxarılmasını xahiş edib. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Məlumatda qeyd edilir ki, Azərbaycan Respublikasının beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə və suverenliyinə, eləcə də ölkəmizin qanunlarına hörmət etdiyini bildirən Robert Qiş müraciətində səfərin nəticələri barədə məlumatsız olduğunu qeyd edib. Habelə o, işğal olunmuş ərazilərimizə gələcəkdə bu cür qanunsuz səfərlərdən çəkinəcəyini bildirib. Onun müraciəti müvafiq qaydada nəzərdən keçirilib və adının arzuolunmaz şəxslər siyahısından çıxarılmasına dair qərar qəbul edilib.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev “Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində və Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1584-VQD nömrəli Qanununun tətbiqi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev “Sığorta fəaliyyəti haqqında”, “Bank olmayan kredit təşkilatları haqqında”, “İnvestisiya fondları haqqında”, “Qiymətli kağızlar bazarı haqqında” və “Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1586-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

# “Ramazan ayı insanları sülhə, həmrəyliyə, əxlaqi saflığa dəvət edən mübarək aydır”

## *Birinci vitse-prezident Mehriban Əliyeva iftar mərasimində iştirak edib*







Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakının Xəzər rayonunun Mərdəkan qəsəbəsindəki Pir Həsən ziyarətgahında təşkil olunan iftar mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva bu yaxınlarda həmin ziyarətgahda olarkən iftar süfrəsinə dəvət edilmişdilər. İftar mərasiminə toplaşanlar Azərbaycandakı sosial-iqtisadi inkişafa, əmin-amanlığa görə təşəkkürlərini bildirdilər. Onlar Prezident İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın ölkəmizim inkişafı istiqamətində gördükləri işləri yüksək qiymətləndirdilər, belə mərasimlərin tezliklə Qarabağda da keçiriləcəyinə əminliklərini ifadə etdilər.

Birinci vitse-prezident Mehriban Əliyeva Xəzər rayonunun sakinləri ilə görüşməkdən şad olduğunu bildirdi, müqəddəs Ramazan ayında onların dualarının qəbul olunmasını və Allah-Təalanın ölkəmizi hər zaman qorumasını arzuladı. İftar mərasimində “Qurani-Kərim”dən ayələr və iftar duası oxundu.

Müqəddəs kitabımız olan “Qurani-Kərim”in nazil olduğu Ramazan ayı insanların qəlbini nurlandıran, onları sülhə, həmrəyliyə, əxlaqi saflığa dəvət edən mübarək aylardandır. Müsəlmanlar bu ayda xeyirxah əməllərin, mərhəmət duyğularının fərəhini, mənəvi-ruhi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar. Mübarək Ramazan günlərində gözəl ənənəyə çevrilən iftar süfrələrinin təşkil edilməsi də cəmiyyətimizin vahidliyinin, ümumi amallar naminə ölkəmizdə dövlətlə din arasında sıx birliyin bariz nümunəsidir. Ramazanın önəmli mərasimlərdən biri olan iftar süfrələrinin mənası, sadəcə, ehtiyacı olanlara yemək vermək deyil, paylaşmaq, yaxınlaşmaq, birlikdə Allaha dua etməkdir. Azərbaycan dövləti çox möhkəm milli dəyərlər üzərində qurulub. İslam dəyərləri isə milli dəyərlərimizin ayrılmaz tərkib hissəsidir.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunda olub

***Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva B.Ə.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunda olub. AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva burada müalicə alan uşaqlarla görüşüb, onlarla söhbət edib.***



Tibbi heyətlə görüşən Leyla Əliyeva uşaqların müalicəsinin gedişi və müəssisədə yaradılmış şəraitlə tanış olub. Qeyd edək ki, institut hazırda üç hissədən ibarətdir: klinika, Mərkəzi Qan Bankı və elm bölməsi. Klinikanın tərkibinə böyüklər üçün iki hematoloji şöbə, uşaq hematologiyası, reanimasiya və intensiv terapiya, konsultativ poliklinika, klinik-diaqnostik laboratoriya və talassemiyanın profilaktikası şöbələri daxildir.

2017-ci ildə Dövlət Proqramı çərçivəsində institutda yeni immunohistoloji müayinələrin aparılması üçün laboratoriya da yaradılıb. Burada immunohistokimyəvi müayinələrin köməyi ilə qanın bədxassəli xəstəliklərinin tam diferensial diaqnostikası, hədəf terapiyanın monitorinqi və xəstəliyin proqnozu müəyyən edilir. Artıq leykozların diaqnostikası və müalicəsi məqsədilə xəstələrin digər ölkələrə getməsinə ehtiyac qalmır.





# Paytaxt Bakı inkişafının yeni dövrünü yaşayır

*İlham Əliyev: "Bakı parkların sayına görə dünyada lider şəhərlərdən biridir"*

***Bu gün ölkəmizin iqtisadi və sosial həyatında baş verən dəyişikliklər bütün sahələrdə yüksəlişlə müşayiət olunub. Ölkəmizin hər bir yerində abadlıq-quruculuq işləri geniş vüsət alıb. Dinamik inkişaf, infrastrukturun yenilənməsi, geniş vüsət almış tikinti-quruculuq və abadlıq işləri regionlarla yanaşı, paytaxt Bakıda da uğurla davam etdirilib. Son illərdə, Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq, Bakıda həyata keçirilən abadlıq-quruculuq işlərinin həcmi daha da artıb. Hər zaman tarixi və bir-birindən maraqlı, diqqətçəkən tikililəri ilə göz oxşayan Bakının adı bu gün yeni-yeni möhtəşəm və bənzərsiz abidələri ilə dünyanın ən gözəl və müasir şəhərləri sırasında yer alıb.***

Qədimliyinə, ərazisinin böyüklüyünə və əhalisinin sayına görə, Şərqin qocaman və ən böyük şəhərlərindən biri hesab olunan Bakının rəmzinə çevrilən və ona yeni sima və rəng verən müasir tikililər də, məhz iqtisadi göstəricilərin məntiqidir. Bakının ümumi görünüşünü daha da müasirləşdirən Bakı şəhərindəki ən hündür bina olan "Alov Qüllələri" kompleksi, Azərbaycan muğamının dünyada geniş təbliği məqsədi ilə yaradılan, Avropa standartları ilə inşa edilən Beynəlxalq Muğam Mərkəzi, Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinin dərindən öyrənilməsi, geniş təbliği və s. istiqamətində sistemli fəaliyyət göstərən Heydər Əliyev Mərkəzi, eləcə də, Xalça muzeyi, Bakı Su İdmanı Mərkəzi və digər qədim tarixə tikililər Bakının simasına müasirlik gətirib.









Bakıda brend şəbəkələrə aid bir neçə beşulduzlu hotelin açılması paytaxtımızın simasına daha bir rəngarənglik əlavə edib. Bu gün "Four Seasons", "Fairmont", "Mariott", "Hilton", "Kempinski", "Jumeirah", "Sheraton", "Hyatt" - dünyanın səkkiz aparıcı hotel brendi Bakıdadır. Belə brendlərə yalnız dünyanın ən inkişaf etmiş şəhərlərində təsadüf olunur.

## BƏNZƏRSİZ, MÖHTƏŞƏM GÖRKƏM BAKINI DÜNYANIN ƏN GÖRMƏLİ ŞƏHƏRLƏRİ SIRASINA DAXİL EDİB

Bakıdakı Dənizkənarı Milli Park Bakı şəhərinin ən maraqlı və spesifik təbii şəraitə malik yerlərindəndir. Bu gün Milli Parkımız ərazisinin böyüklüyünə görə, Parisdə Sena çayı sahilindəki parkdan sonra Avropada ikinci yerdədir. Burada "Baku Kristal Hall"ın inşası bu ərazinin görkəminə yeni rəng əlavə edib. 25 min nəfərlik tamaşaçı yeri olan kompleks orijinal arxitekturası ilə fərqlənir və paytaxtın memarlıq quruluşuna xüsusi yaraşıq verir. Bu bənzərsiz, möhtəşəm görkəm Bakının dünyanın ən görməli 52 şəhərindən biri kimi seçilməsinə səbəb olub.

Bakı Bulvarında bərpa edilən "Qu quşları" Fəvvarə Kompleksi də paytaxtımızın əzəmətinə və görkəminə xüsusi bir rəng verir. Bakı Bulvarının tarixi rəmzlərindən biri olan "Qu quşları" Fəvvarə Kompleksi 60 ildən artıq tarixə malikdir. Paytaxtımızda qurulan "Qu quşları" Fəvvarəsi də sakinlərin sevimli məkanlarından biri kimi hər zaman sevilib. Dünyaşöhrətli, Azərbaycanın dahi şairi Nizami Gəncəvi və görkəmli bəstəkar Qara Qarayevin "Yeddi gözəl" poeması və baletindən ruhlanaraq yaradılan və 7 qu quşu heykəlindən ibarət fəvvarə paytaxtın gözəl məkanlarından biridir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bu tarixi ansambl yenidən bərpa edildi. Layihə çərçivəsində ərazidə hovuz inşa edilib, 16 fəvvarə dirəyi qurulub və 7 qu quşu heykəli hazırlanıb. Bu məkan müasirləşən paytaxt Bakının görkəminə daha bir gözəllik və möhtəşəmlik gətirdi. İndi şəhərimizin sakinləri və buraya üz tutan minlərlə əcnəbi bu gözəlliyi seyr edərək, qədim və müasir Bakının gözəlliklərinə və hüsnünə heyran qalırlar.

## MÜASİR PARKLAR PAYTAXTIMIZIN GÖRKƏMİNİ DƏYİŞİR

Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə Təzəpir Məscidinin qarşısındakı yeni bağın və Füzuli küçəsi boyunca salınan Mərkəzi Parkın açılışı görülən işlərin davamıdır. Prezident İlham Əliyevin birbaşa göstərişinə uyğun olaraq, "Sovetski" adlanan ərazidə abadlıq və yenidənqurma işləri aparılıb. Ərazi orijinal layihə əsasında yüksək səviyyədə abadlaşdırılaraq, burada müasir tələblərə uyğun yeni istirahət parkı salınıb. Avstriyanın məşhur memarı Yans Hoffmanın layihələndirdiyi Mərkəz Parkın ən mühüm xüsusiyyəti Nəriman Nərimanov prospektindən Heydər Əliyev Sarayınadək olan ərazidə piyadalara yol keçmədən maneəsiz hərəkət imkanının yaradılmasıdır. Görülən işlər çərçivəsində parkın ərazisində, ümumilikdə, 9 fəvvarə tikilib. İstirahət parkında müasir işıqlandırma sistemi və infrastrukturun bir mərkəzdən idarə olunması üçün təhlükəsizlik kameraları quraşdırılıb. Ərazisi 20 hektar olan parkın 14 hektarında yaşıllıq salınıb. Burada 2100-dən çox 19 növ ağac və 137 mindən artıq gül və kol bitkiləri əkilib. Ümumilikdə, Mərkəzi Parkın inşası ilə Füzuli Meydanının ətraf ərazilərində Bakının "ağciyəri" hesab olunan yeni yaşıllıq zolağı salınmaqla, Prezident İlham Əliyevin "Bakı şəhərinin Yasamal rayonu ərazisində Füzuli Meydanının ətrafındakı yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması və abadlıq işlərinin aparılması ilə bağlı bəzi tədbirlər haqqında" 2016-cı il 4 avqust tarixli, "Təzəpir Məscidi Kompleksi"nin ətraf ərazisinin abadlaşdırılması ilə əlaqədar tədbirlər haqqında" 2016-cı il 5 avqust tarixli sərəncamlarının icrası olaraq, "Təzəpir Məscidi Kompleksini ziyarət edənlər üçün parklama imkanlarının yaradılması işləri" layihəsinin II mərhələsi tam yekunlaşdırılıb və insanların istirahəti və dincəlməsi üçün istifadəyə verilib.

Paytaxt Bakı inkişafının yeni dövrünü yaşayır və şəhərimizin gözəlliyinə yeni gözəlliklər qatılır. Paytaxt sakinlərinin və ölkəmizə gələn turistlərin istirahəti üçün ən müasir parkların və yeni-yeni yaşıllıq zolaqlarının salınması davam edir. Yeni salınan parklar Bakının simasının daha da gözəlləşməsi baxımından, mühüm rol oynayır. Prezident İlham Əliyev bildirdiyi kimi, parklar şəhərimizin hər bir yerində salınır, o cümlədən, qəsəbələrdə: "Hesab edirəm ki, Bakı parkların sayına görə dünyada lider şəhərlərdən biridir".

***Nəzakət ƏLƏDDİNQIZI***

# Əli Əhmədov: "Cümhuriyyəti quranlar bugünkü Azərbaycanla fəxr edərdilər"



"Respublika günü ərəfəsində Cümhuriyyəti quranlar hamılıqla minnətdarlıq hissi ilə yad edilir, xalqımız azərbaycançılıq ideyaları ətrafında daha sıx birləşir, dövlətçiliyə sədaqətini ifadə edir". SİA-nın məlumatına görə, bunu Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədov sosial şəbəkədəki paylaşımda qeyd edib.

Ə.Əhmədov bildirib ki, 101 il əvvəl qurulmuş, az yaşasa da ənənələri onun layiqli varisi olan Azərbaycan Respublikası tərəfindən yaşadılan Xalq Cümhuriyyəti tariximizin şanlı səhifəsi kimi əbədi yaşayacaq: "Qürurla qeyd etmək yerinə düşər ki, Xalq Cümhuriyyətinin ideyaları və ənənələri ümummilli lider Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan dövləti tərəfindən nəinki qorunur və yaşadılır, həm də daha yüksəklərə qaldırılır. Şübhə etmirəm ki, Cümhuriyyəti quranlar bugünkü Azərbaycanla fəxr edərdilər, çünki onların və bütün xalqımızın arzuları müstəqil dövlətimizin mövcudluğunda və fəaliyyətində özünün təcəssümünü tapır.

Azərbaycan XXI əsrin ən uğurlu dövlətlərindən biri olduğunu bütünlüklə təsdiq edə bilmişdir. Müstəqillik, müasirlik, tərəqqi, hürriyyət kimi ümumbəşəri ideyalar dövlətimizin təməl prinsipləri olaraq vətəndaşların xidmətindədir. 100 il əvvəl Cümhuriyyət qurucuları Azərbaycanın müstəqilliyinin tanıdılması uğrunda mübarizə aparırdılar, indi Azərbaycan özünün dövlət müstəqilliyini qəti şəkildə təsdiq edib. 100 il əvvəl beynəlxalq güclər Bakı neftini ələ keçirmək uğrunda savaşırdılar, indi Azərbaycanın bütün təbii sərvətləri xalqımızın mənafeyinə xidmət göstərir.

İndi Azərbaycan nümunə göstərən bir ölkədir. Yüksək inkişaf nümunəsi, əminamanlıq nümunəsi, tolerantlıq nümunəsi Azərbaycanı bütün dünyada məşhur edib. 100 il əvvəl müstəqil yaşamağa haqqı olduğunu sübuna yetirməyə çalışan bir xalq və onun müstəqil dövləti indi dünyaya nümunə göstərir. Çünki müstəqillik və dövlətçilik etibarlı əllərdədir. Respublika günümüz mübarək olsun!".

# "Ermənistandakı siyasət tam şəkildə iflasa uğrayıb"



"Ermənistan özünü müstəqil dövlət elan etsə də elə deyil. Ermənistan hansısa dövlətin yedəyində gedir". SİA-nın verdiyi məlumata görə, bunu jurnalistlərə açıqlamasında Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, YAP-ın icra katibinin müavini Siyavuş Novruzov deyib.

YAP İcra katibinin müavinin sözlərinə görə, bu gün Cənubi Qafqazda, eləcə də postsovet məkanında və Avropada çox az sayda müstəqil dövlət var ki, onlardan biri də məhz Azərbaycandır: "Ermənistan nə xarici, nə daxili siyasətində, nə də iqtisadi-sosial siyasətində müstəqil addım ata bilir. Ona görə də orada keçirilən seçkilər zamanı və ondan əvvəlki dövrlərdə Ermənistanın vəziyyətinin günü-gündən ağırlaşdığı proqnozlarda dəfələrlə qeyd olunur. Aparılan tədqiqatlar göstərir ki, ildə 100 mindən artıq insan Ermənistanı tərk edir, heç bir müəssisə və təşkilat orada fəaliyyətini davam etdirmir".

S.Novruzov qeyd edib ki, orada sosial vəziyyət acınacaqlıdır: "Orduda qarşıdurma var və bu daha da dərinləşib. Eyni zamanda siyasi rəhbərlikdə də qarşıdurma var. Regionlararası münasibətlər də bir-birinə qarışıb. Bu baxımdan Ermənistanda seçki öncəsi verilən vədlərin heç 1%-i də yerinə yetirilməyib və bundan sonra da yetirilməyəcək. Çünki orada peşəkar siyasətçilər və işi bilənlər yoxdur. Təxminən Azərbaycanın 90-cı illərindəki vəziyyəti xatırlanır, kimi gəldi müxtəlif vəzifələrə təyin edirdilər. Populyarlıq da cəmi bir-iki ay çəkir. Ona görə də populizmlə heç bir məsələni idarə etmək olmaz. Çünki ortada real iş olmalıdır. Bu da yoxdur. İlkin dövrdə bir az imkanlı şəxslərin vəsaitlərini müsadirə etməklə bir neçə ay bunu tənzimləməyə çalışdılar. Ancaq indi bu da yoxdur". O vurğulayıb ki, hazırda Ermənistanın xarici siyasəti də bərbad vəziyyətdədir: "Paşinyan hər ölkədə fərqli fikirlər səsləndirir. Ona görə də Ermənistanın xarici siyasəti sıfır vəziyyətindədir. Ordudan yayınmalar həddindən artıq çoxdur. Valideylər öz uşaqlarını Azərbaycan ərazisində xidmət etməyə göndərmir. Sual qoyurlar ki, Dağlıq Qarabağ və ətraf ərazilərdə uşaqlarımızın nə işi var?! Odur ki, Ermənistandakı siyasət tam şəkildə iflasa uğrayıb".

***Ceyhun Rasimoğlu***

# Erməni əsilli gimnast: Mxitaryanın yerində olsaydım, komandamla birgə Bakıya gələrdim




Bakıda yarışlar yüksək səviyyədə təşkil edilib. Burada hər şey çox mükəmməldir. Bakı təhlükəsiz şəhərdir. Ona görə də buradakı yarışlarda məmnuniyyətlə iştirak edirik. İnsanlar çox mehribandırlar. Hər məsələdə bizə kömək edirlər. Azərbaycanın milli xörəkləri çox dadlıdır. Burada qalmaq, məşqlər etmək üçün hər cür şərait var. Bunu mayın 24-də Bakıda start götürən aerobika üzrə 11-ci Avropa çempionatında iştirak edən erməni əsilli rusiyalı gimnast Duxik Canazyan AZƏRTAC-a müsahibəsində deyib.

"Bakı 2015" birinci Avropa Oyunlarında da iştirak etdiklərini vurğulayan gimnast bildirib: "Dörd il əvvəl Bakıda keçirilən birinci Avropa Oyunlarında iştirak etmişik. Bakıda gözəl idman ab-havası var. Milli Gimnastika Arenası qeyri-adi gözəlliyə malikdir. Burada azarkeşlər bütün gimnastlara, eləcə də bizə güclü dəstək verirlər".

"Arsenal" komandasının erməni futbolçusu Henrix Mxitaryanın UEFA Avropa Liqasının Bakıda keçiriləcək final qarşılaşmasında iştirak etməməsinə münasibət bildirən gimnast deyib: "Düşünürəm ki, idmanla siyasəti qarışdırmaq düzgün deyil. Mən onun yerinə olsaydım, komandamı dəstəkləyib onun yanında olardım".

## "Azərbaycan dünyada böyük nüfuz sahibidir"



"1993-cü ildə Azərbaycan müstəqilliyini itirmə təhlükəsi ilə qarşı-qarşıya idi, o dövrdə hakimiyyətin xalqın maraqlarına uyğun gəlməyən fəaliyyəti bizi çox çətin vəziyyətə salmışdı". SİA-nın verdiyi məlumata görə, bunu Milli Məclisin vitse-spikeri Bahar Muradova parlamentdə Yeni Azərbaycan Partiyasının (YAP) Gənclər Birliyinin üzvləri ilə görüşündə deyib. B.Muradova bildirib ki, Heydər Əliyevin xalq tərəfindən Bakıya çağrılması düzgün qərar idi: "O qərarı həmin dövrün şərtləri diqtə edirdi. Heydər Əliyev o zaman xalqın səsinə səs verdi, Azərbaycanı o çətin vəziyyətdən, müstəqilliyin itirilməsi təhlükəsindən xilas etdi. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dünyada böyük nüfuz sahibidir. Biz parlament olaraq beynəlxalq qruplar vasitəsilə beynəlxalq əlaqələrin qurulmasında iştirak edirik, çoxlu sayda dostluq qrupları var. Bu gün Azərbaycan dünya dövlətləri içərisində sayılıb-seçilən ölkədir, parlamentimiz dünya parlament ailəsinin üzvüdür".

## Riçard Danakari: Erməni terrorizmi bütün Qafqaz regionunun inkişafına öz mənfi təsirini göstərir

Qafqazda baş verən proseslər öz aktuallığı ilə dünyanın diqqət mərkəzindədir. Bu fikri AZƏRTAC-a müsahibəsində Rusiya Federasiyası Prezidenti yanında Xalq Təsərrüfatı və Dövlət Qulluğu Rusiya Akademiyasının Volqoqrad İnstitutunun fəlsəfə və sosiologiya kafedrasının professoru Riçard Danakari deyib. O bildirib ki, Qafqaz regionunda vacib məsələlərdən ən birincisi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasıdır. Qarabağ problemi, erməni terrorizmi bütün Qafqaz regionunun inkişafına öz mənfi təsirini göstərir. "Forumda Qafqaz siyasəti, regionda münaqişələr, Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları və Qafqaz regionunda olan digər problemlər elmi səviyyədə müzakirə olunur. Ümid edirəm ki, forum qafqazşünaslığın problemlərinin beynəlxalq arenaya çatdırılmasında mühüm rol oynayacaq", - deyə alim qeyd edib.




# "İstək olarsa, hər şey mümkündür"

Son günlər kütləvi informasiya vasitələrində Avropa Liqasının final görüşünə - "Arsenal" və "Çelsi" futbol komandalarının Bakıda keçiriləcək qarşılaşmasına böyük diqqət ayrılır. Ukraynanın "FOOTBOOM" portalı da bu gün digərlərindən geri qalmayaraq qarşıdakı futbol "savaşı" barədə material yerləşdirib. Materialda qeyd edilir ki, İngiltərə KİV-ləri, azarkeşlər və hətta klubların nümayəndələri Avrokubokun finalının Bakı kimi şəhərlərdə keçirilməsi haqqında "oraya uçmaq uzaqdır", "qalmaq üçün qiymətlər ağlasığmaz dərəcədə yüksəkdir" kimi sərt fikirlərini bildiriblər. Guya zavallı britaniyalıların cüzi əməkhaqları onların Azərbaycana uçaraq orada komandalarını dəstəkləmələrinə imkan vermir. Əlbəttə, Bakı Madrid deyil, Bakıda yaşayış üçün variant daha azdır. Lakin qiymətlər Avropa Liqasının finalının keçiriləcəyi dövrə tam uyğundur.

"Londondan (hər iki komanda məhz bu şəhərdəndir) Bakıya uçmaq həqiqətən də uzaqdır. Lakin nə etməli? Məgər Avrokubokun bütün oyunları ingilislər üçün rahat olan şəhərlərdə keçirilməlidirmi? Nəhayət, hər zaman birləşmək və ya klubdan azarkeşlər üçün çarter reysləri təşkil olunmasını xahiş etmək mümkündür", - deyə məqalənin müəllifləri tamamilə məntiqlə qeyd edirlər.

Məqalədə Bakıya necə getmək, harada qalmaq və s. barədə ətraflı danışılır. Müəlliflər məqalənin sonunda yazırlar: "Biz sizinlə görürük ki, hər şey britaniyalıların yazdığı dərəcədə pis deyil. Britaniya azarkeşlərini nəzərə alsaq, yeganə problem Londondan Bakıya olan narahat marşrutdur. Lakin bu işlə bağlı UEFA təşkilatçılığa kömək etməyə söz verib. Elə "Arsenal" və "Çelsi"nin digər ölkələrdən olan fanatlarının Bakıya gəlmələri üçün də müxtəlif variantlar tapmaq mümkündür. İstək olarsa, hər şey mümkündür. Maraqlıdır ki, ingilislərin Formula 1 yarışlarına səfərlərində buna bənzər çətinliklər onların qarşısını kəsmir. Bu səbəbdən Avropa Liqası finalının keçiriləcəyi yer üçün qaldırılan səs-küy hansısa həllolunmaz problem deyil, əksinə daha çox mübaliğədir".

# YAP Gənclər Birliyinin üzvləri Milli Məclisdə olublar



***Mayın 24-də Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin üzvləri Milli Məclisdə olublar. Əvvəlcə gənclər Milli Məclisin inzibati binasında Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək xatirəsini yad ediblər.***

Sonra YAP Gənclər Birliyinin üzvləri parlamentin iclas zalı ilə tanış olublar. YAP İcra katibinin müavini, Milli Məclisin İctimai Birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov gəncləri salamlayıb, onların Azərbaycan parlamentinin fəaliyyəti ilə tanış olmalarının əhəmiyyətini vurğulayıb. Sonra Milli Məclisin Aparat rəhbəri Səfa Mirzəyev parlamentin fəaliyyəti haqqında məlumat verib. O bildirib ki, parlamentin binası hələ sovetlər dönəmində Ulu Öndər Heydər Əliyevi təşəbbüsü ilə tikilərək istifadəyə verilib. Azərbaycan parlamentinin keçdiyi yolun əhəmiyyətindən danışan S.Mirzəyev qeyd edib ki, Milli Məclis 125 deputatdan ibarətdir. S.Mirzəyev deyib ki, 1995-ci ildən indiyə kimi parlament 2000-dən çox qanun və qərar qəbul edib.

Daha sonra YAP Gənclər Birliyinin üzvləri parlamentdə "Heydər Əliyev" xatirə zalı ilə tanış olublar.

Sonra "Azərbaycan parlamentarizm tarixi: dünəni və bu günü" mövzusunda dəyirmi masa öz işinə başlayıb. YAP İcra katibinin müavini, Milli Məclisin İctimai Birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov mövzunun aktuallığını qeyd edib. Bildirib ki, gənclərimiz xalqımızın tarixini, o cümlədən, parlamentin tarixini dərindən öyrənməlidir: "Bu baxımdan, belə bir dəyirmi masanın keçirilməsi əhəmiyyətlidir. Bir neçə gündən sonra mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin 101-ci ildönümü qeyd olunacaq. Bu münasibətlə YAP Gənclər Birliyi üzvlərinin Milli Məclislə tanışlığı Azərbaycanın siyasətini, qanunvericiliyini, iqtisadiyyatını daha dərindən öyrənilməsinə yaxşı imkan yaradıb".

Milli Məclis sədrinin müavini, parlamentin İnsan hüquqları komitəsinin sədri Bahar Muradova çıxış edərək bildirib ki, 28 May Respublika Günü tariximizdə mühüm yer tutur. B.Muradova cümhuriyyət irsinin öyrənilməsinin, bundan ibrət dərsi götürməli olduğumuzu deyib. O qeyd edib ki, bu gün biz Azərbaycan Xalq Cümhuriyyəti qurucularını böyük hörmətlə yad edirik və yoxdan bir dövlət yaradan insanları unutmamalıyıq. Cümhuriyyət qurucuları mühacirətdə olduqları dövrdə də Azərbaycanın bir zaman müstəqillik qazanacağına inamlarını itirməyiblər. Bu insanların irsini qorumaqla yanaşı, müasir Azərbaycan dövlətini də qorumalıyıq. Milli Məclis sədrinin müavini deyib ki, Ermənistan daim Azərbaycan ərazilərini ələ keçirməyə çalışıb: "Ermənilər həm Cümhuriyyət dövründə, həm də sonralar Azərbaycan ərazilərinə iddia ilə çıxış ediblər. O zaman Milli Şuranın İrəvanı Ermənistana paytaxt kimi verilməsi barədə qərarının ağrı-acılarını bu gün də hiss edirik. İrəvanın Milli Şura tərəfindən hansı şərtlər daxilində Ermənistana verilməsi məlumdur. Qərarda Ermənistanın Azərbaycana qarşı ərazi iddialarla çıxış etməyəcəyi, oradakı azərbaycanlıların yaşayışına müdaxilə etməyəcəyi ilə bağlı şərtlər əksini tapmışdı. Milli Şuranın əsas xidməti İstiqlal Bəyannaməsini qəbul etmək, müdafiə qabiliyyətini möhkəmləndirmək, Bakını işğaldan azad etmək olub. Bakı ermənilərin işğalından qurtularaq Azərbaycanın paytaxtına çevrilib".

Azərbaycan parlamentinin 1918-ci ildə fəaliyyətə başlamasını deyən B.Muradova qeyd edib ki, parlament fəaliyyət göstərdiyi müddət ərzində vacib qanun və qərarlar qəbul edib, o dövrdən indiyədək şərəfli yol keçib. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, əgər cümhuriyyət qurucuları yaşasaydılar, bugünkü müstəqil Azərbaycanla qürur duyardılar.

Vitse-spiker deyib ki, 1993-cü ildə Azərbaycan müstəqilliyini itirmə təhlükəsi ilə qarşı-qarşıya idi, o dövrdə hakimiyyətin xalqın maraqlarına uyğun gəlməyən fəaliyyəti ölkəni çox çətin vəziyyətə salmışdı: "Ulu öndər Heydər Əliyevin xalq tərəfindən Bakıya çağırılması düzgün qərar idi. Həmin qərarı o dövrün şərtləri diqtə edirdi. Ulu Öndər Heydər Əliyev o zaman xalqın səsinə səs verdi, Azərbaycanı düşdüyü çətin vəziyyətdən, müstəqilliyin itirilməsi təhlükəsindən xilas etdi. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dünyada böyük nüfuz sahibidir. Biz parlament olaraq beynəlxalq qruplar vasitəsilə beynəlxalq əlaqələrin qurulmasında iştirak edirik, parlamentimizdə çoxlu sayda dostluq qrupları fəaliyyət göstərir. Bu gün Azərbaycan dünya dövlətləri içərisində sayılıb-seçilən ölkədir, parlamentimiz dünya parlament ailəsinin üzvüdür".

Sonra tədbirdə gəncləri maraqlandıran suallar cavablandırılıb.

Bundan sonra "Azərbaycanda enerji təhlükəsizliyi" mövzusunda dəyirmi masa keçirilib. Tədbirdə giriş sözü ilə çıxış edən YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov mövzunun aktual olduğunu, gənclər üçün böyük maraq kəsb etdiyini bildirib. Azərbaycanda enerji təhlükəsizliyi mövzusunda çıxış edən Milli Məclisin sədr müavini, parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu neft strategiyası haqqında ətraflı məlumat verib. O, Azərbaycanın zəngin neft ehtiyatarına sahib olduğunu deyərək 1993-cü ildə Ulu Öndərin hakimiyyətə qayıdışından sonra xalqımız öz təbii sərvətlərinə sahib çıxdı.

Vitse-spikerin sözlərinə görə, 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması müstəqil Azərbaycanın tarixində çox mühüm hadisədir. Onun sözlərinə görə, bu müqavilənin imzalanması Heydər Əliyevin siyasi iradəsinin gücü, Ona beynəlxalq miqyasda olan etimad və şəxsi nüfuzu sayəsində reallaşıb. V.Ələsgərov qeyd edib ki, "Əsrin müqaviləsi" Azərbaycan üçün əlverişli şərtlərlə imzalanıb, sənəddə milli maraqlarımız tam qorunur. "Əsrin müqaviləsi" Azərbaycanın hərtərəfli inkişafında mühüm rol oynayır.

Bu gün Azərbaycanın nəinki özünün, bütövlükdə Avropanın enerji təhlükəsizliyində mühüm rol oynadığını deyən vitse-spiker Prezident İlham Əliyevin Ulu Öndərin müəllifi olduğu neft strategiyasını uğurla davam etdirdiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, hazırda hazırda qlobal enerji layihələrini həyata keçirən dövlətdir. Bu gün Azərbaycan 7 neft və qaz kəməri ilə dünya bazarına çıxır. "Bu gün Azərbaycan dünyada neft və qaz ixrac edən ölkə ilə yanaşı tranzit ölkə kimi də tanınır. Azərbaycan həmçinin bu baxımdan qonşu dövlətlər üçün yeni imkanlar yaradır"deyən, V. Ələsgərov əlavə edib ki, Azərbaycan özünün enerji təhlükəsizliyini tam təmin edib. Onun sözlərinə görə, hazırda Azərbaycanın həyata keçirdiyi enerji layihələri, Şahdəniz qazının dünya bazarına çıxarılması üçün imzalanan sazişlər XXI əsrin müqavilələridir. "Bu baxımdan, TAP, TANAP və digər layihələr beynəlxalq əhəmiyyətli layihələrdir. Azərbaycan ərazi baxımdan kiçik dövlət olsa da, bu qlobal layihələrin reallaşdırılması üçün böyük siyasi iradə, milli həmrəylik var. Təbii ki, iqtidarla xalqın həmrəyliyi olmasaydı bu layihələri reallaşdırmaq mümkün olmazdı. Amma ölkəmizdə bu birliyin mövcudluğu Azərbaycanın gücünü şərtləndirir. Həyata keçirilən layihələr Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolunu daha da artırır"-deyə, V.Ələsgərov vurğulayıb. Tədbirdə çıxış edən gənclər dövlətimizin enerji siyasəti, neft strategiyası haqqında fikirlərini bildiriblər.

YAP Gənclər Birliyinin üzvlərinin iştirakı ilə Milli Məclisdə növbəti dəyirmi masa "Azərbaycanda təhlükəsizlik sistemi.Dağlıq Qarabağ münaqişəsi və onun həlli yolları" mövzusunda olub. Tədbiri açan YAP İcra katibinin müavini, Milli Məclisin İctimai Birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov bildirib ki, Ermənistanın işğalçı siyasəti nəticəsində Dağlıq Qarabağ münaqişəsi yaranıb. Onun sözlərin görə, bu gün Azərbaycan dövləti münaqişənin həlli ilə bağlı prinsipial mövqe nümayiş etdirir.

Milli Məclis sədrinin birinci müavini, parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov münaqişənin yaranma tarixi və səbəbləri haqqında fikirlərini bildirib. Tarixən ermənilərin Azərbaycana qarşı ərazi iddialarının olduğunu deyən Z.Əsgərov söyləyib ki, əslində ermənilər Qafqazın aborigen xalqı deyil, gəlmədirlər. Birinci vitse-spiker qeyd edib ki, ermənilərin Azərbaycana qarşı ərazi iddialarının heç bir əsası yoxdur. Çünki Dağlıq Qarabağ həm tarixi, həm də hüquqi cəhətdən Azərbaycana məxsusdur.

"Təəssüf ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hələ də həll olunmayıb. Bunun əsas səbəbi beynəlxalq hüquq normalarının işğalçı Ermənistana qarşı tətbiq edilməməsidir" - deyən Z.Əsgərov bildirib ki, BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı qəbul etdiyi dörd qətnamədə Azərbaycanın ərazi bütövlüyü tanınır, erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərindən qeyd-şərtsiz çıxarılması tələb olunur. Eləcə də, Avropa Şurası Parlament Assambleyasının, Avropa Parlamentinin, İslam Əməkdaşlıq Təşkilatının və digər beynəlxalq qurumların sənədlərində Azərbaycanın ərazi bütövlüyü tanınır.

"Belə olan təqdirdə, münaqişə niyə həll olunmur? Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasının əsas səbəbi Azərbaycana qarşı ikili standartların tətbiq olunmasıdır. Bu gün dünyada beynəlxalq hüquq işləmir. Güc kimdədirsə, beynəlxalq hüquq onun tərəfindədir. İşğalçı Ermənistanın havadarları münaqişənin həllinə imkan vermir. Onlar deyirlər ki, münaqişə sülh yolu ilə həll olunmalıdır. Biz də sülh tərəfdarıyıq. Amma niyə onlar Ermənistanın işğalçı olduğunu demirlər? Bu qədər ədalətsizlik olmaz. Ona görə də, Azərbaycan güclənir və bundan sonra da güclənəcək. Prezidentimizin mövqeyi bundan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyü müzakirə predmeti ola bilməz"-deyə, birinci vitse-spiker vurğulayıb.

Z.Əsgərov münaqişənin həlli ilə bağlı danışıqlar prosesi, Azərbaycan ordusunun gücləndirilməsi, ölkəmizin təhlükəsizlik sistemi haqqında geniş məlumat verib.

Sonra tədbirdə iştirak edən gənclərin sualları cavablandırılıb.

# Şanlı cümhuriyyət tariximiz

***Qədim dövlətçilik tarixinə, mədəniyyətinə və ənənəsinə malik olan Azərbaycan təbii sərvətləri və strateji-coğrafi mövqeyinə görə, zaman-zaman güclərin diqqət mərkəzində olub və bu baxımdan, müxtəlif təzyiqlərə məruz qalıb. Belə bir gərgin ictimai-siyasi dövrünü yaşayan Azərbaycan xalqının müstəqillik arzusu və mübarizəsi isə, heç vaxt tükənməyib.***



XX əsrin əvvəllərində, müstəqil dövlət qurmaq fürsəti yaranan kimi, azərbaycanlılar mövcud şəraitdən dərhal yararlanaraq, 1918-ci il mayın 28-də müsəlman Şərqində ilk demokratik, parlamentli respublika - Azərbaycan Xalq Cümhuriyyəti yaratdılar. AXC yarandığı gündən xarici və daxili qüvvələr tərəfindən müxtəlif təzyiqlərə məruz qalıb. Belə ki, həm xaricdən, həm də daxildən daşnak ermənilər, həmçinin, menşevik qüvvələr Azərbaycanın müstəqil dövlət kimi formalaşmasına mane olurdular. Lakin bütün bu çətinliklərə baxmayaraq, Cümhuriyyət dövründə milli ordumuzun yaradılması, atributlarımızın, dövlət dilimiz haqqında qanunun qəbul olunması, maarif və səhiyyə sahəsində geniş tədbirlərin həyata keçirilməsi, Azərbaycanın sərhədlərinin və təhlükəsizliyinin təmini istiqamətində böyük işlər görülüb. Hələ o dövrdə söz azadlığı, demokratiya, gender bərabərliyi kimi məxsusi dəyərlərə malik olub. Bu dövrdə AXC müsəlman xalqlarına müstəmləkəçilikdən xilas olmağın yolunu göstərib, onlar üçün nümunə olaraq, Avropanın bir çox ölkələrindən xeyli əvvəl qadınlara seçib-seçilmək hüququ verib.

1991-ci ildə öz müstəqilliyini bərpa edən müasir Azərbaycan Respublikası, 1918-1920-ci illərdə, 23 ay ərzində, mövcud olan və müsəlman Şərqində ilk dünyəvi-demokratik dövlət kimi tarixə düşən Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisidir. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq, həmin dövr üçün mütərəqqi hesab edilən dövlət təsisatlarının yaradılmasına nail olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq və sair sahələrdə həyata keçirdiyi işlər Azərbaycan xalqının tarixinin parlaq səhifəsidir.

### AZƏRBAYCANLI UŞAQLARIN DOĞMA DİLDƏ TƏHSİL ALMA HÜQUQU QANUNİLƏŞDİRİLİR

AXC, qısa müddətdə, tarixi bir missiyanı yerinə yetirərək, genişmiqyaslı demokratik islahatlar həyata keçirib. Cümhuriyyət dövründə xalqımızın taleyinə ciddi təsir edə biləcək qanun və qərarlar qəbul olunub. Üç ay ərzində, parlamentdə təxminən, 270-dək qanun layihəsi müzakirəyə çıxarılıb. Onlardan 230-u qəbul olunub və parlament qəbul etdiyi qərarlarla milli dövlətçiliyin əsaslarının formalaşdırılmasına və gücləndirilməsinə tarixi töhfələr verib.

Cümhuriyyət dövründə əldə olunan nailiyyətlər sırasında təhsil sahəsində olan uğurları da qeyd etməliyik. Xalq təhsili və maarifləndirmə üzrə ilk nazirlik Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti tərəfindən təsis edilib. Nazirlər Şurasının qərarı ilə 30 iyun 1918-ci ildə üç şöbədən - ümumi orta təhsil, ali və orta ixtisas təhsili, peşə məktəblərindən ibarət strukturu təsdiq edilib. Xalq təhsili sahəsində ilk önəmli tədbir məktəblərin milliləşdirilməsi olub, bu da, təhsilin doğma Azərbaycan türk dilinə keçirilməsi idi. Bununla da, ilk dəfə olaraq, azərbaycanlı uşaqların doğma dildə təhsil alma hüququ qanuniləşdirilib.

Xalq Maarifi Nazirliyi 1919-20-ci il tədris ilinin əvvəlindən ali ibtidai məktəblərin bütün siniflərinin və orta tədris məktəblərinin üç sinifinin milliləşdirilməsini qərara alınıb. Mənbələrdə göstərilib ki, Bakı şəhəri milli məktəblərin inspeksiyasında və Bakı quberniyasında 1918-19-cu tədris ilində 76 rus - bunlardan Bakıda 30, əyalətlərdə isə 46 məktəb var idi. Onlardan 51-i dövlət, qalan 25-i isə şəhər, neft-sənayeçiləri qurultayına məxsus idi və özəl sayılırdı.

1919-cu ildə Bakı Dövlət Universitetinin əsası qoyulub. Belə ki, həmin dövrdə yaradılmış, ölkənin ilk ali məktəbi olan bu universitet, məhz AXC-nin yadigarıdır. Burada, həmçinin, tibbin tarixi də tədris edilirdi. Bakı Şəhər Dumasının 1919-cu ilin 15 iyul tarixli iclasında Şəhər Dumasının şəhər məktəblərinin müəllimləri üçün 1600 rubl təqaüd təyin edir.

Bakıda məktəb binalarının çoxu, ya tamamilə dağıdılmış, ya da əsaslı təmir tələb olunacaq qədər bərbad idi. Hökumət Bakı şəhər ibtidai məktəblərində məktəb-sanitar nəzarətinin təşkil edilməsi üçün 827,600 rubl vəsait ayırmışdı. Məktəblilərə müxtəlif ictimai təşkilatlar da yardım göstərirdilər.

### RESPUBLİKAMIZ CÜMHURİYYƏT DÖVRÜNÜN DEMOKRATİK DƏYƏRLƏRİNƏ SADİQ QALARAQ, SÜRƏTLƏ İNKİŞAF EDİR

Dövrün nadir sistemi olan AXC cəmi 23 ay yaşadı və bolşeviklərin işğalı ilə üzləşərək Sovet İttifaqının bir hissəsinə çevrildi. Nəhayət, 71 ildən sonra, Sovet İttifaqının dağılması ilə Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdi. Dövlət müstəqilliyimiz bərpa edildikdən sonra xalqımız Cümhuriyyətin ideallarını davam etdirərək, bu tarixi varislik üzərində yeni müasir müstəqil Azərbaycan dövlətini yaradıb.

AXC-nin hüquqi varisi olan müstəqil respublikamız Cümhuriyyət dövrünün demokratik dəyərlərinə sadiq qalaraq, sürətlə inkişaf edir və dünya birliyində layiqli yer tutur.

Ölkəmizin müstəqillik illərində qazandığı nailiyyətlərin bünövrəsi, məhz Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı müstəqil Azərbaycanın təhsil siyasətində yeni dövrün başlanğıcını qoydu. Beləliklə, dağılmaq təhlükəsindən xilas olmuş ölkəmizdə təhsil sisteminin yeniləşməsi də vacib məsələ kimi qarşıda dururdu. Azərbaycanın təhsil sisteminin sovet təhsil sisteminin ideoloji buxovlarından ayrılıb, bəşəri təhsil sisteminə qovuşması üçün, ilk növbədə, yeni təhsil sisteminin nəzəriyyəsi, fəlsəfəsi, təhsil sahəsində dövlət siyasətinin əsas istiqamətləri, konseptual müddəaları, fəaliyyət prinsipləri, təhsilin məzmunu, məqsədi və strukturu müəyyənləşdirilməli idi. Müstəqil Azərbaycan dövləti öz müstəqil təhsil siyasətini həyata keçirmək üçün ilkin islahatların keçirilməsinə başladı. 1999-cu ilə Ulu Öndər “Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı”nın təsdiq edilməsi haqqında” Sərəncam imzaladı. Heydər Əliyevin müəllifi olduğu Təhsil İslahatı Proqramı yeni dövrün təhsil tarixində əhəmiyyətli yer tutur. Bu islahatlar təhsilin əksər sahələrini əhatə edirdi, ancaq başlıca istiqamət orta ümumtəhsil məktəblərinin inkişafına və onların maddi-texniki bazalarının möhkəmləndirilməsinə yönəldilmişdi.

Təhsilin maddi-texniki bazasının yüksəldilməsi dövlətimizin qarşıya qoyduğu vacib məsələlərdən idi. Ulu Öndər yeni məktəblərin tikintisi ilə bağlı Dövlət Proqramının hazırlanmasını əhəmiyyətli məsələ kimi qarşıya qoymuşdu və 2003-cü il fevralın 17-də Ümummilli Lider “Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair Proqramın (2003-2007-ci illər) “təsdiq edilməsi haqqında” Sərəncam imzaladı.

Bu gün, fəxrlə deyə bilərik ki, məktəb tikintisi sahəsində Azərbaycan MDB məkanında ilk yerlərdən birini tutur. Ulu Öndərin siyasətinin uğurlu davamçısı Prezident İlham Əliyev məktəb tikintisini çox vacib məsələ kimi qarşıya qoymuş və hazırda bu sahədə yeni proqramlar reallaşdırılmaqdadır.

Təhsilin inkişafına xidmət göstərən onlarla Dövlət Proqramı qəbul edilmişdir. Dövlətimizin təhsillə bağlı qəbul etdiyi inkişafyönlü proqramlar təhsilimizin inkişafına davamlı xarakter verməklə, onu dünya standartları səviyyəsində qurmağa da imkan yaradır. Pedaqoji kadr hazırlığı, xüsusi istedada malik uşaqların yaradıcılıq potensialının inkişafı, məktəbəqədər təhsilin yeniləşdirilməsi, məktəblərin avadanlıqlarla təmin olunması, gənclərin xaricdə təhsil almaları, texniki peşə təhsilinin təkmilləşdirilməsi, ali məktəblərin inkişafı və s. məsələlərlə bağlı qəbul olunmuş proqramların bir qismi həyata keçirilmiş, bəziləri isə reallaşmaq üzrədir.

### AZƏRBAYCAN TƏHSİLİNƏ YÖNƏLMİŞ DİQQƏT ZAMANIN TƏLƏBLƏRİNİ ÖDƏYƏ BİLƏCƏK ZİYALILARIN YETİŞMƏSİNƏ DOĞRU UĞURLU BİR ADDIMDIR

Məktəb tikintisi ilə bağlı qəbul olunmuş dövlət proqramları bu sahədə sürətli inkişafı təmin edib. Eyni zamanda, regionların sosial-iqtisadi inkişafı, yoxsulluğun azaldılması, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması ilə bağlı qəbul olunan dövlət proqramlarında da məktəb tikintisinə xüsusi önəm verilir. Bakı və Abşeronun sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunan dövlət proqramlarında yeni məktəblərin tikintisinə diqqət yetirməklə yanaşı, mövcud məktəblərin əsaslı təmirinə də yer ayrılıb. Yeni təhsil müəssisələrinin tikintisi, mövcud məktəblər üçün əlavə korpusların inşası, onların əsaslı təmiri, müasir avadanlıqlarla, laboratoriyalarla təminatı, istilik sisteminin bərpası nəticəsində, ümumilikdə, ölkə üzrə 1 milyondan çox şagirdin təlim şəraiti yaxşılaşdırılmışdır. Müasir dövrümüzdə məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində görülən işlər bu sahədə olan çətinlikləri aradan qaldırıb. Yüksək şəraiti ilə seçilən və müasir təlim avadanlıqları ilə təmin olunan məktəblər şagirdlərin istifadəsinə verilib.

Azərbaycanın dünyaya inteqrasiya olunduğu zamanda Azərbaycan təhsilinə yönəlmiş diqqət, məhz bu sahədə zamanın tələblərini ödəyə biləcək ziyalıların yetişməsinə doğru uğurlu bir addımdır.

***Zümrüd BAYRAMOVA***

# DSX-da "Siyasi repressiya qurbanları muzeyi"nin açılışı olub

***2019-cu ilin may ayının 24-də Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin inzibati binasında "Siyasi repressiya qurbanları muzeyi"nin açılışına həsr olunmuş tədbir keçirilib. Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən SİA-ya verilən məlumata görə, tərbirdə Azərbaycan Respublikası Prezidentinin Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi Fuad Ələsgərov, Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Mədət Quliyev, Azərbaycan Respublikasının Ali Məhkəməsinin sədri Ramiz Rzayev, Azərbaycan Respublikası Baş Prokurorunun birinci müavini Rüstəm Usubov, Azərbaycan Respublikasının Hərbi Prokuroru general-leytenant Xanlar Vəliyev, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Elmira Süleymanova, Azərbaycan Yazıçılar Birliyinin sədri Anar, Azərbaycan xalq yazıçısı Çingiz Abdullayev, Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru Yaqub Mahmudov, Azərbaycan Milli Arxiv İdarəsinin rəisi Əsgər Rəsulov, Azərbaycan Respublikası Milli Məclisinin deputatları Aydın Mirzəzadə, Əflatun Amaşov, Aqil Abbas və digər rəsmi şəxslər iştirak ediblər.***











Tədbirdə general-polkovnik Elçin Quliyev, Əbülfəs Qarayev, Anar, Yaqub Mahmudov və general-polkovnik Mədət Quliyev çıxış ediblər. Çıxışlarda muzeyin ekspozisiyasının Azərbaycan tarixinin ən acı səhifələrini əyani sürətdə əks etdirməsi, 1920-1950-ci illərdə dövlətin apardığı siyasət nəticəsində on minlərlə ictimai və dövlət xadiminin, elm, mədəniyyət, incəsənət nümayəndələrinin, sıravi vətəndaşların repressiyaya məruz qalması xüsusi qeyd edilib.

1950-ci illərin ikinci yarısında siyasi repressiya qurbanlarına bəraət verilməsinə baxmayaraq bolşevizmin hökmranlıq etdiyi illərdə siyasi repressiyalar haqqında məlumatların yayılmasına qadağa qoyulması, yalnız müstəqillik illərində - 15 mart 1996-cı il tarixdə Dahi Öndər Heydər Əliyevin imzaladığı "Siyasi repressiya qurbanlarının reabilitasiyası haqqında" Azərbaycan Respublikası Qanununda bu hadisələrə ilk dəfə hüquqi qiymət verilməsi bildirilib.

Azərbaycan tarixinə bir sərhədçi töhfəsi olaraq Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyinə həsr olunmuş tədbirlər çərçivəsində DSX-nin inzibati binasında "Siyasi repressiya qurbanları muzeyi"nin yaradılması 1925-ci ildən sonra bu binada dövlətin əsas repressiv orqanlarının fəaliyyət göstərməsi ilə bilavasitə əlaqədardır. Binanın zirzəmisində həbs olunanların saxlanılma kameraları, istintaq otaqları, ölüm hökmü çıxarılanların güllənməsi yerləri mövcud olub. Muzeyin yaradılmasında əsas məqsədlərdən biri də repressiya qurbanlarının xatirəsinə ehtiram və yaxın keçmişimizin qanlı səhifələri haqqında gənc nəslin nümayəndələrinin düzgün məlumatlandırılmasıdır.

Muzeyin ekspozisiyasının əsasını Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində, Milli Arxiv İdarəsinin Dövlət və Kino-Foto arxivlərində, Dövlət Təhlükəsizlik Xidmətinin arxivində saxlanan sənədlər və fotoşəkillər, həmçinin yerli sənətkarların hazırladıqları kompozisiyalar təşkil edir. Bir sıra sənədlər Rusiya arxivlərindən əldə olunub, Qazaxıstan "ALJİR" siyasi repressiya müzeyi tərəfindən təqdim olunub. Muzeyin ekspozisiyasının hazırlanmasına Mədəniyyət Nazirliyi və A.Bakıxanov adına Tarix İnstitutu tərəfindən də köməklik göstərilib.







Müzeyin əsas zalında “Danışan sənədlər” adlanan lövhədə repressiyanın həyata keçirilməsi ilə bağlı 1920-1930-cu illərdə qəbul edilmiş sənədlərin surətləri verilib. Azərbaycanda repressiyanı “qanunlaşdıran” ilk sənədlərdən biri kimi Bakı şəhər komendantının 26 may 1920-ci il əmri daha çox diqqəti cəlb edir. Əmrdə əks olunmuş “Hansı evdən güllə atılsa, həmin ev top atəşinə tutulacaq, 16 yaşından 50 yaşına qədər olan hər kəs mühakiməsiz güllələnəcək. Siqnal və yaxud nişan verənlər tutulduqları yerdə gülləbaran ediləcəklər” müddəası xalqımıza qarşı xüsusi amansızlığı açıq-aydın nümayiş etdirir. Diqqətçəkən daha bir sənəd SSRİ Mərkəzi İcraiyyə Komitəsinin 1 dekabr 1934-cü il tarixli qərardır.Bu qərara görə terror aktlarına görə cinayət işlərinin istintaqı və baxılması on gündən artıq olmayan müddətdə başa çatdırılmalı, dindirmələr tərəflərin iştirakı olmadan aparılmalı idi. Bu işlər üzrə hökmlərdən kassasiya şikayəti, həmçinin əfv haqqında vəsatətlərə yolverilmirdi, ölüm cəzası haqqında hökm qəbul edildikdən sonra dərhal yerinə yetirilirdi.







Muzeyin əsas zalında yerləşdirilən lövhələrdən biri rerpessiyaya məruz qalmış azərbaycanlı hərbi xadimlərə həsr olunub. Burada həm Azərbaycan Xalq Cümhuriyyəti dövründə xidmət etmiş generallar - Həbib bəy Səlimov, Firudin bəy Vəzirov, Süleyman bəy Sulkeviç, İbrahim ağa Usubov və digərləri, həm də sovet Azərbaycanının hərbiçiləri - generallar Cəmşid Naxçıvanski və Qambay Vəzirov, polkovniklər Qalib Vəkilov, Məmməd Veysov, Seyfulla Mehtiyev və başqaları haqqında məlumat və fotoşəkillər verilib.

Növbəti lövhə 1920-ci ilin yanvarında təhsil almağa və təhsillərini davam etdirmək üçün Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən Avropaya göndərilən gənclərin təhsillərini başa vurub Vətənə qayıdandan sonra məruz qaldıqları repressiyalara həsr edilib. Belə ki, Vətənə dönmüş 56 ali təhsilli mütəxəssisin 38-i güllələnib və ya sürgün edilib.

Siyasi repressiya qurbanı olan qadınlara həsr olunmuş lövhədə güllələnmiş beş qadın - Xədicə Qayıbova, Mədinə Qiyasbəyli, Nemət Məlikova, Panfiliya Tanailidi və Ayna Sultanova, həmçinin güllələnmiş “xalq düşmənlərinin” islah-əmək düşərgələrinə sürgün olunmuş həyat yoldaşları haqqında məlumatlar verilib. Lövhədə qadınların həbsi və cəzası ilə bağlı sənədlərin surətləri yerləşdirilib. Tanınmış şair Əhməd Cavadın həyat yoldaşı Şükriyyə Axundzadənin himayəsində dörd azyaşlı uşaq olmasına baxmayaraq, sürgün edilməsi haqqında sənədin surəti də lövhədə yer alıb.Qadınların repressiyasına həsr olunmuş daha bir lövhədə Vətən Xainləri Qadınlarının Akmola Düşərgəsində (ALJİR - Akmolinskiy Laqerğ Jen İzmennikov Rodinı) cəza çəkmiş 44 azərbaycanlı qadın haqqında məlumat verilib.

Ayrıca bir lövhə böyük dramaturq və şair Hüseyn Cavidə həsr edilib. Təqdim olunan sənədlərdə dahi mütəffəkirimizin sovet dönəmində üzləşdiyi repressiyalar ifadə olunub. Növbəti lövhədə Azərbaycan ziyalıların məruz qaldıqları repressiyalardan bəhs edilir. Burada şair Mikayıl Müşviq, pedaqoq Tağı Şahbazi, aktyor Abbas Mirzə Şərifzadə və digərlənin güllələnməsi barədə aktların və arayışların surətləri nümayiş olunur.

Muzeydə azərbaycanlıların Ermənistandan deportasiyasına xüsusi diqqət ayrılıb. Müvafiq lövhədə yerləşdirilmiş sənədlər sonda azərbaycanlıların doğma torpaqlarından deportasiyası ilə yekunlaşan SSRİ rəhbərliyinin xaricdə yaşayan ermənilərin Ermənistana köçməsinə dəstəyi, Ermənistanda yaşayan azərbaycanlıların vəziyyətinə kifayət qədər diqqət ayırmaması siyasətindən xəbər verir. Həmin lövhədə Sovet İttifaqı Kommunist Partiyasının və SSRİ-nin icra orqanlarının Azərbaycanda yaşayan almanların və İran təbəsi olan azərbaycanlıların respublikadan çıxarılması haqqında sənədlərinin surətləri də yerləşdirilib.

1920-ci ildən başlayan siyasi repressiyaların ilk qurbanları Azərbaycan Xalq Cümhuriyyətinin tanınmış simaları - parlament və hökumət üzvləri olmuşlar. Bir çox musavatçaların və ittihadçıların güllələnməsi vəsürgün edilməsi barədə sənədlərin surətləri bolşeviklərin öz siyasi rəqiblərinə nə qədər amansız olduğundan xəbər verir. Həmin illərdə Azərbaycanın qabaqcıl ziyalılarının məruz qaldıqları siyasi repressiyaların təşkilində Azərbaycanın repressiv orqanlarında o dövrdə məsul vəzifələr tutmuş milliyyətcə erməni olan şəxslərin böyük rolunun olması da qeyd olunub.

Daha bir lövhə Azərbaycan Fövqəladə Komissiyasının (AzÇK) fəaliyyətinin ağır nəticələrinə həsr olunub. Təqdim olunan sənəd surətləri arasında SSRİ Ədliyyə Xalq Nazirliyinin təlimatçısı İvanovun 1934-1937-ci illərdə əsassız məhkum olunan kolxozçuların, MTS işçilərinin, kənd şuraları üzvlərinin və kənd fəallarının işlərinə yenidən baxılması təklifi ilə bağlı Azərbaycanın rəhbəri Mircəfər Bağırova müraciəti böyük maraq kəsb edir. Müraciətdə göstərilir ki, ilkin hesablamara görə Azərbaycanda həmin dövrdə göstərilən kateqoriyadan olan 32000 şəxsin məhkumluğu ilə nəticələnmiş 11000 cinayət işinə yenidən baxılmalıdır.

Repressiya illərində bolşeviklərin siyasi məhbuslarla davranması barədə ziyarətçilərdə təsəvvür yaratmaq məqsədi ilə muzeydə saxlama kameraları, karserlər, dindirilmə otağı, güllələnmə otağı tarixi rekonstruksiya üsulu ilə bərpa edilib. Muzeyin dəhlizlərində qanunsuz həbsə etirazı, azadlığa can atmanı simvolizə edən kompozisiyalar quraşdırılıb. “Repressiya burulğanı”, “Ümid işığında” adlı kompozisiyalarda zindan həyatını yaşamış və Vətənindən didərgin edilmiş soydaşlarımızın keçirdikləri iztirab və əziyyətləri rəmzi formada ifadə olunub.

Muzey fəaliyyətə başladıqdan sonra Rusiya və Qazaxıstanda keçmiş islah-əmək düşərgələri və sürgün ərazilərində təşkil olunan siyasi repressiya muzeyləri ilə əlaqə yaradılması, həmin düşərgələrdə cəza çəkmiş azərbaycanlılar haqqında məlumatların toplanılması və yenilənmiş ekspozisiyalar vasitəsilə ziyarətçilərin diqqətinə çatdırılması, siyasi repressiya qurbanlarının yaxın qohumlarının muzeyin işinə cəlb edilməsi, qanunsuz təqib olunan şəxslərə məxsus sənədlərin və əşyaların əldə olunması istiqamətində fəaliyyətin həyata keçirilməsi nəzərdə tutulub.

Dövlət Sərhəd Xidməti muzeyin fəaliyyətinə kömək məqsədilə siyasi repressiya qurbanlarının nəvə və nəticələrini, yaxın qohumlarını əməkdaşlığa dəvət edir, muzeyin fondlarının zənginləşdirilməsinə töhfə verə biləcək hər bir təşəbbüsü dəstəkləyir.

# “Paşinyanı devirəcəyik!” - “DQR” generalları qərar verdi

## Yerevanda küçə döyüşlərinin baş verəcəyini istisna etmək olmaz

Ermənistanın mövcud hakimiyyəti ilə “DQR” arasındakı gərginlik durmadan artmaqdadır. Belə ki, Robert Koçaryanın azadlığa buraxılmasından başlayan proses, əslən Qarabağdan olan erməni hərbi- siyasi dairələrinin Nikol Paşinyan iqtidarına qarşı hücum mövqelərini güncəlləndirməkdədir. O da sirr deyil ki, bu gün Ermənistanın oliqarxiyasının tərkib hissəsi də qarabağlı ermənilərdən ibarətdir. Bu xüsusda, onların tez-tez “DQR”ə səfər edib, müəyyən planlarla geri dönmələri artıq qiyamın astanada olduğunu sübuta yetirir. Hətta bir sıra məqamlarda silahlı qiyamın da olacağı istisna edilmir.





Bu arada, Ermənistanda nəşr edilən “Jamanak” (“Zaman”) qəzeti daxili mənbələrinə istinadən yazır ki, “DQR” generalitetinin tanınmış təmsilçiləri və Ermənistanın qarabağlı oliqarxları ölkənin baş naziri N.Paşinyanın vəzifəsindən güc yolu ilə devirilməsi məqsədini daşıyan sui-qəsd planını uzun müzakirələrdən sonra qəbul ediblər.

Digər erməni KİV-ləri də sözügedən məsələ ətrafında bənzər məqalələrlə çıxış edirlər. Misal üçün, “Novosti Armeniyi” qəzeti isə yazır ki, sui-qəsd planının müzakirəsi və qəbulu “Oqanovski” kimi tanınan “DQR”-on “müdafiə naziri”nin keçmiş “müavini” Samvel Karapetyan tərəfindən təşkil edilib. Gizli görüş Ermənistanın ictimai-siyasi səhnəsində də yer alan tanınmış oliqarxlarından birinin malikanəsində keçirilib. Gizli görüşdə Ermənistan parlamentində deputat olmuş məşhur biznesmen Samvel Aleksanyan da iştirak edib. “Onlar Nikol Paşinyan hökumətini devirmək üçün hər şeyi etməyə söz veriblər” deyə adıçəkilən erməni nəşri qeyd edib.



### Ermənistanın Təhlükəsizlik Şurasının katibliyi narahatlığını gizlətmir

Artıq sui-qəsd və çevriliş planı mətbuata sızdığı üçün, Ermənistan ictimaiyyətində təlaşlanma və çalxalanma müşahidə edilməkdədir. Belə ki, ölkənin Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan respublika hakimiyyətində mümkün sui-qəsd haqqında narahatlıqların olduğunu dilə gətirib. Lakin buna baxmayaraq, Qriqoryan əlavə edib ki, bu haqda çox açıq danışmaq olmaz və həmin istiqamətdə işləri müvafiq güc strukturları aparmalıdırlar.

Adıçəkilən şəxs, istisna etməyib ki, “DQR” generalları və Ermənistanın qarabağlı oliqarxiyasının qiyamçıları, planlarını qəbul etməmişdən öncə, müəyyən xarici güclərlə məsləhətləşiblər. Düzdür, TŞ-nin katibi birbaşa olmasa da, dolayı yolla burada Rusiya kəşfiyyatının əlinin olduğuna da işarə edib. Daha dəqiq desək, jurnalistlərin “Sui-qəsdlə məşğul olanlar xarici, yoxsa daxili qüvvələrdir” sualına cavabında Qriqoryan bildirib ki, “onlar müəyyən dərəcə bir-birilərinə bağlıdırlar”.

### Kreml Paşinyanın anti-Rusiya çağırışlarını unutmayıb

Əbəs deyil ki, bundan qabaq da, “DQR” hərbi-siyasi gücləri tez-tez Moskvaya səfərlər edərək, səfərlərinin məqsədlərini məsləhətləşmələrlə əlaqələndirirdilər. Xatırlatmaq mümkündür ki, hələ ötən il N.Paşinyan “məxməri inqilab” edərək, küçələrə insan toplayarkən, “DQR”in “prezidenti” Bako Saakyan Ermənistanın o zamankı prezidenti, “Qarabağ klanı”nın aparıcı fiquru Serj Sarkisyanın təlimatları əsasında, Moskvaya bir neçə dəfə səfər etmişdi. Paşinyanın anti-Rusiya çağırışları Kremli qəzəbləndirdiyi üçün, Rusiyanın müəyyən hərbi-siyasi dairələri var gücləri ilə Qarabağ klanına dəstək göstərməyə çalışırdılar. Lakin həmin ərəfələrdə Qərb Rusiyadan üstün oldu və Ermənistanda siyasi çevriliş baş verdi.

İndi isə, revanş zamanının çatdığını düşünən Qarabağ erməniləri sözügedən planlarını icra etmək qərarına gələrək, həm də Rusiyanın tövsiyələri əsasında hərəkətə keçməyə başlayıblar.

### Erməni baş nazir sui-qəsd niyyətlərinin qarşısını almaq üçün ən sərt tədbirlər görəcəyini bəyan etsə də...

Yeri gəlmişkən, N.Paşinyan mayın 20-də bildirmişdi ki, onun siyasi opponentləri Qarabağda Ermənistanla “DQR” arasında qarşıdurma yaratmaq üçün, ona qarşı yalan təbliğat aparacaqlar. O, bunu, məhz kimlərin edəcəyini dəqiqləşdirməmişdi. Lakin bəyan etmişdi ki, “DQR”in “təhlükəsizliyinin təminatçısı” və Ermənistan silahlı qüvvələrinin ali baş komandanı olaraq, bu sui-qəsd niyyətlərinin qarşısını almaq üçün ən sərt tədbirlər görəcək. Düzdür, Paşinyan bu bəyanatını səsləndirsə də, mövcud vəziyyətin onun, ümumilikdə isə, Ermənistanın xeyrinə olmadığı göz önündədir. Bəlkə də, erməni baş naziri eyham vurub ki, nəyin bahasına olursa-olsun, o öz hakimiyyətinin devrilməsinə cəhd göstərənlərə qarşı amansız davranacaq. Ancaq “DQR” generallarının arxasında Kremlin müəyyən dairələrinin dayandığını düşünsək, vəziyyətin get-gedə daha da dərinləşəcəyini, silahlı qarşıdurmaların yaşanacağını, hətta Yerevanda küçə döyüşlərinin baş verəcəyini istisna etmək olmaz.

*Rövşən RƏSULOV*

# Anna Akopyanın azərbaycanlı jurnalistə məntiqsiz cavabı




Baş nazir Nikol Paşinyanın arvadı Anna Akopyan Alma-Atada Avrasiya media forumu çərçivəsində azərbaycanlı jurnalistin sualını cavablandırmağa çalışıb. SİA xəbər verir ki, bu barədə Ermənistana məxsus Iragir.am saytında da məlumat yayımlanıb.

Məlumatda deyilir ki, azərbaycanlı jurnalistin, “əgər baş nazirin oğlu Ermənistanın işğalı altında olan Azərbaycanın Dağlıq Qarabağ bölgəsində xidmət edirsə, hansı etibarlılıq atmosferindən söhbət gedə bilər”, sualına A.Akopyan, “müharibə qurtarmayıb və bu səbəbdən mənim oğlum Qarabağda xidmət edir” cavabı verib.

Saytın məlumatından da göründüyü kimi baş nazirin həyat yoldaşının cavabı tamamilə məntiqsiz və yersiz olmaqla, suala uyğun cavab deyil. Azərbaycanlı jurnalistin sualının hansı kontekstdə olduğunu A.Akopyan yaxşı bilsə də suala tamamilə uyğunsuz cavab verib. Sözügedən saytda o da xəbər verilir ki, baş nazirin həyat yoldaşı tərəfləri bir-birinə etibar etməyə dəvət edib və münaqişənin həllinin müharibə deyil, danışıqlar yolu ilə nizamlanmasına çağırıb. A.Akopyan 2016-cı ildə aprel döyüşlərində yüzlərlə erməni döyüşçüsünün öz həyatını itirməsini etiraf edib və bu hadisənin bir daha təkrarlanmasına yol verilməməsini təklif edib.

*İnam Hacıyev*

# “Ermənistan gərək 100 milyon dollar dilənsin”



“Haylarla havadarlarının Avropa Liqasının Bakıda keçiriləcək oyunu ilə bağlı qaldırdıqları səs-küyün səbəblərindən biri də ola bilsin ki, Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin rəisi Artur Vanetsyanın dünən baş nazir Paşinyanın keçirdiyi toplantıda dediyi məsələdir”. Bunu SİA-ya millət vəkili Sahib Alıyev deyib.

“Vanetsyan o toplantıda İrəvanın iki stadionundan heç birinin beynəlxalq yarışlar keçirməyə yaramadığını və o üzdən də UEFA-nın orada bu qəbildən olan yarışların keçirilməsinə qadağa qoya biləcəyini açıqlayıb. O da bəlli olub ki, orada yeni stadion tikintisi üçün 100 milyon dollar gərəkir, onu isə tapmağın ancaq bir yolu var-kimdənsə dilənmək. Görünür haylar Bakıda keçirilən beynəlxalq tədbirləri həm də o səbəbdən gözdən salmağa, ətrafında qalmaqal yaratmağa çalışırlar ki, özlərində bu alınmır.

Yeri gəlmişkən, Vanetsyanın təkcə Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin deyil, eyni zamanda Futbol Federasiyasının da rəhbəri olduğunu nəzərə alsaq, Henrix Mxitaryanın agentliyi və Avropa liqasının final oyunu öncəsi onun tövsiyyələrinə uyğun davrandığı da istisna edilmir”-deyə, deputat fikrini tamamlayıb.

*Ceyhun Rasimoğlu*

# Cari ildə dəmir yolu nəqliyyatı ilə 1 milyard dollarlıq yük daşınıb

Bu ilin yanvar-aprel aylarında dəmir yolu nəqliyyatı ilə ümumilikdə 2 milyon 257 min 220 ton yük daşınıb ki, bu yüklərin dəyəri 1 milyard 14 milyon 646 min ABŞ dolları olub. Dövlət Gömrük Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, 4 ayda dəmir yolu nəqliyyatı ilə ixrac olunan 677 min 745 ton yükün dəyəri 228 milyon 227 min dollar təşkil edib.

Eyni dövrdə bu nəqliyyat növü ilə idxal edilən yüklərin həcmi 1 milyon 579 min 474 ton, dəyəri isə 786 milyon 418 min dollar olub.

# ABŞ İranı vuracaqmı?

***Son zamanlar ABŞ hərbi dəniz qüvvələrinin bölgədə dislokasiya yerini dəyişməsi və İran körfəzi ətrafında cəmləşməsi dünyanın diqqət mərkəzində olduğu kimi bölgə insanlarının da çox böyük həyəcan və narahatlığına səbəb olmuşdur. Eyni zamanda, dünyada olduğu kimi, region dövlətlərində ən çox müzakirə olunan, diqqətlə izlənilən məsələ kimi Azərbaycanda da bu proseslər ciddi nəzarətdə saxlanılır.***



Əslində görünən budur ki, ABŞ, Birləşmiş Ərəb Əmirlikləri yaxınlığında, Ərəbistan dənizində olan böyük hərbi dəniz eskadrilyası vasitəsilə təhlükəli gedişlərlə "manevr etməkdədir". Körfəzdə ən müasir raket silahları ilə təchiz olunmuş "Arleigh Burke" sinfindən iki eskadrilya daşıyıcısı var və Birləşmiş Ərəb Əmirlikləri sahillərində "Kear sarge" universal desant gəmisi hazır döyüş vəziyyətində manevrlər edərək əmr gözləyir. Ancaq bunlar heç də hamısı deyil və ABŞ-ın İrana qarşı hərbi əməliyyatına təyyarə və döyüş helikopterləri daşıyan "Abraham Linkoln" gəmisi başçılıq edir. Bunlardan əlavə 700 hərbçi və 20-yə yaxın döyüş texnikası daşıya bilən "Arlington" gəmisi və daha minadaşıyıcı, raketdaşıyıcı gəmilərlə döyüş hazırlığı vəziyyətindədir. ABŞ-ın hərbi manevrlərinə isə İran tərəfi daha təmkinli və ölçü-biçili davranışları ilə cavab verir. Müşahidə olunan odur ki, həm hərbi manevrlər, həm də diplomatik savaş hələlik hər iki tərəfin planlaşdırdığı və ya nəzərə alınmış ssenarilər üzrə gedir və situasiya hər iki tərəfin nəzarətində inkişaf edir. Eyni zamanda İran XİN-i, təcrübəli diplomat Məhəmməd Cavad Zərif çox qısa və çoxmənalı sətiraltı ifadələrlə bəyan edərək "ABŞ-ın Bəsrə körfəzində hərbi qüvvələrinin sayını artırması arzuolunmaz "qəza"lara yol aça bilər. ABŞ çox təhlükəli oyun oynayır. "Qəza" yaranmaması üçün olduqca ehtiyatlı olmaq gərəkdir" - demişdir.

### Məhəmməd Cavad Zərifin fikrincə ABŞ hansı oyunu oynayır?

Yaxın keçmişə qısa nəzər saldıqda görünür ki, ABŞ prezidenti Trampın sələfi oğul Buşun da prezidentliyi dövründə də bir dönəmdə belə görüntü yaranmışdı ki, İranla müharibəyə çox az qalıb. Hətta həmin vaxtlar deyilirdi ki, İranı vurmaq barədə hərbi-siyasi qərar artıq qəbul olunub, günün dəqiqləşdirilməsi prosesi gedir. Həmin dövrdə 19 konqresmenin həmmüəllifi olduğu Oreqon ştatından olan konqresmen Piter de Farionun təqdim etdiyi qətnamədə vurğulanırdı ki, "konqresin sanksiyası olmadan prezident İrana qarşı hərbi əməliyyatın başlanmasına təşəbbüs göstərə bilməz". Qətnamədə xatırladılırdı ki, ABŞ kəşfiyyatının məlumatına görə, İran cəmi bir neçə ildən sonra nüvə silahına malik olacaq və hazırda nüvə problemini tənzimləmək üçün BMT, Avropa İttifaqı, ABŞ, Rusiya, Çin və Beynəlxalq Atom Enerjisi Agentliyinin iştirakı ilə səylər göstərilir. BBC müxbiri Con Leyn isə 2007-ci il ABŞ-İran qarşıdurmasını öz məqaləsində belə ifadə edir. "Bir arada ABŞ prezidenti Corc Buş İranın nüvə proqramına görə III Dünya Müharibəsi barədə xəbərdarlıq edirdi. Sonra isə sülh perspektivi müharibəni üstələdi. Bu həqiqətən də İran üçün qəribə bir il idi. İl ərzində İran üzərinə təzyiqlər durmadan güclənirdi. Yeni sanksiyalar qaçılmaz, müharibə isə real görünürdü. Lakin bir gecədə hər şey dəyişdi. Dekabr ayında Amerikanın öz kəşfiyyatı elan etdi ki, İran nüvə bombası əldə etməyə çalışmır". Həmin dövrdə indiki kimi aktual olan əsas suala ABŞ prezidenti bu problemin həlli düsturunu qısa cavabla ifadə etmişdi. Ona ünvanlanan görəsən, Corc Buş İrana qarşı Amerika və ya İsrail tərəfindən olan güc tətbiq edilməsinə gəldikdə əslində hansı mövqedədir? sualına belə cavab vermişdi: "Mən həmişə demişəm ki, bütün mümkün imkanlar masa üzərindədir. Lakin Amerika üçün ilk variant-bu məsələni diplomatik yolla həll etmək variantıdır". Corc Buşun xələfi Barak Obama da ABŞ-İran münasibətlərinə "öz töhfəsini" verdi və İranın nüvə proqramı ilə bağlı danışıqların yekunu kimi 2015-ci il iyulun 15-də BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Rusiya, ABŞ, Böyük Britaniya, Çin, Fransa və Almaniya ilə İran arasında birgə fəaliyyət proqramı imzalandı. Birgə Hərtərəfli Hərəkət Planı (Joint Comprehensive Plan of Action) adlı sazişdə İranın nüvə sənayesində fəaliyyətinin məhdudlaşdırılması əvəzində BMT, Aİ, və ABŞ tərəfindən İrana qarşı tətbiq edilmiş sanksiyaların dondurulması nəzərdə tutulmuşdu. Bu razılaşma barədə BMT-nin baş katibi Antonio Guterres də fikrini bildirərək deyib ki, 2015-ci ildə əldə olunan razılıq saxlanılmasaydı, real müharibə riski var idi.




Və indi, "mənə aydındır ki, biz bu çürüyən və xarab sazişin çərçivəsində İranın nüvə silahı əldə etməsinin qarşısını ala bilməyəcəyik" deyərək Donald Tramp ABŞ-ın bu sazişdən imtina etdiyini və bunu digər dövlətlərə də tövsiyyə edərək birtərəfli qaydada sanksiyalar tətbiq olunacağını bəyan edir. Yeri gəlmişkən, ABŞ prezidenti "mənə aydındır ki, biz bu çürüyən və xarab sazişin çərçivəsində İranın nüvə silahı əldə etməsinin qarşısını ala bilməyəcəyik" deməklə əslində Prezident Tramp Amerikanın bu proses qarşısında gücsüzlüyünü ifadə edir və eyni zamanda bəlkə də ictmaiyyət üçün olmayan kəşfiyyat məlumatını bəyan edir. Sazişi imzalayan sabiq ABŞ prezidenti Barak Obama Donald Trampın bəyanatının "səhv" olduğunu bildirib. Əslində maraqlı situasiya yaranır, əgər ümumiyyətlə İranla müharibə etmək lazım idisə ABŞ səfirliyinin əməkdaşlarının 1979-cu ildə girov götürüldüyü zaman həmin dövrdəki Prezident Jimmy Carter girovları azad etmək üçün müharibəyə başlamadı. Ondan sonrakı Prezident Ronald Reyqanın zamanında hətta İrana gizli silah satışı barədə də xəbərlər vardır. Məhəmməd Rza şah Pəhləvidən sonrakı dövrdə həmişə ABŞ-İran münasibətləri gərgin olub, lakin müharibə başlaya bilməyib. Tutaq ki, nəzəri cəhətdən ABŞ-ın körfəzdə müharibəni başladığını təsəvvür edək. Bu bataqlıqdan çıxa biləcəkmi? Dünyada neftin qiymətini belə halda proqnozlaşdırmaq çox çətindir və bu vəziyyətdə ABŞ-ın ən ciddi hərbi və iqtisadi rəqibləri uyğun olaraq, Rusiya və Çinin Amerikaya bu bataqlıqda boğulmağa necə kömək edəcəklərini təsəvvür etmək çətin deyil. Ona görədə bu qarşıdurma və gərginlik ən yüksək həddə çatsa da ABŞ-ın böyük mənada İranla hərbi müharibəyə başlayacağı inandırıcı görünmür. Lakin iqtisadi, psixoloji-mənəvi müharibə isə həmişə davam edir. Bu gərginliyi şərtləndirən geopolitik və siyasi amillər mövcuddur ki, burada iqtisadi və digər istənilən arqument və amillər sadəcə olaraq, "texniki detallar" rolunu oynayır.

### ABŞ müharibəni başlaya bilərmi?

May ayının 8-də Moskvaya səfəri zamanı İranın Xarici İşlər Naziri Məhəmməd Cavad Zərif bildirib: "Cəsarətlə deyə bilərəm ki, bugün İran və Rusiya arasında münasibətlər indiyə qədər olmayan şəkildə geniş və dərindir". Aydın məsələdir ki, ABŞ-ın hədəfində İranda hakimiyyət dəyişikliyi (məsələn, Məhəmməd Rza Pəhləvi kimi amerikayönlü siyasi hakimiyyət) etmək nə qədər çox vacib və əhəmiyyətlidirsə, digər hədəfi isə Rusiyanın da yerində ABŞ-ın və Qərbin "demokratiya" tələblərini müzakirəsiz icra edən - ram olmuş, Rusiyanın Prezidenti Vladimir Putinin təbirincə desək, zəncirlənmiş rus ayısının, Qərbin xammal bazası rolunu oynayan bir nimdaş Rusiya dövlətinin qurulmasıdır. Və hazırda Rusiyanı İranla bağlayan təkcə eyni siyasi-iqtisadi təzyiq formaları deyil, həm də çox gözəl anlayırlar ki, birinin süqutu digərinin çöküşüdür. İran XİN-nin rəhbərinin ardınca ABŞ dövlət katibi Mayk Pompeonun Rusiyaya səfər etməsi bölgədə Rusiyanın rolunun bariz göstəricisidir. Maraqlıdır ki, Amerika kəşfiyyatının keçmiş şefinin Moskvaya elə-belə əliboş getməsi hər halda inandırıcı görünmür, amma Vladimir Putin keçmiş həmkarını peşəkar kəşfiyyatçı kimi qarşıladı və çox dəqiq ifadələrlə qısa şəkildə həm Rusiya ABŞ münasibətlərinin, həm hazırki dünyanın siyasi tablosunu ifadə edərək "Rusiya yanğınsöndürən deyil ki, hər yerə özünü çatdırsın" deməklə sanki Tramp administrasiyasını arxayınlaşdırdı, bir növ aldadıcı jest etdi. Əslində isə çox cüzi qeyri-təvazökarlıq edərək diplomatik dildə dünyada kimlərinsə alovlandırdığı ocaqlarda söndürən rolunu boynuna götürdüyünə işarə vurudu. Lakin bəzi şərhçilər, hər halda təsadüf olmaya da bilər, şərh etməyə çalışdılar ki, guya bu sözlərlə Vladimir Putin Amerika ilə razılığa gəldiyinə işarə vurur və İran məsələsində ABŞ-a güzəştə gedəcək. Ancaq əslində isə istənilən halda Suriya və Venesuela problemlərindən sonra Putin Rusiyası İran məsələsində daha inamlı "arbitr" rolunu öz üzərinə götürməkdədir. Donald Tramp xarakterсə populizmi nə qədər çox sevsə də Ağ Ev Administrasiyasında Trampın Amerika Birləşmiş Ştatlarını, əleyhdarlarının diqqətlə izlədiyi və gözlədiyi bataqlığa batıracağına imkan verməyəcək ağıllı adamların çalışdıqlarına heç bir şübhə yoxdur.

Elə İran XİN başçısı da "ABŞ çox təhlükəli oyun oynayır. "Qəza" yaranmaması üçün olduqca ehtiyatlı olmaq gərəkdir" deyəndə Trampın oynadığı oyunda səhvə yol versə "qəza" törənə və qığılcım çıxa bilər xəbərdarlığını səsləndirir. "The New York Times" xəbər verir ki, ABŞ prezidenti Müdafiə Naziri vəzifəsinin icraçısı Patrix Şanaxana deyib ki, "İranla müharibəyə başlamaq niyyətində deyiləm".

Bəs onda öz pullarının qədrini bilən ABŞ prezidenti dövlət büdcəsindən böyük maddi xərclər israf edərək bölgədə ətraf dövlətlər və vətəndaşlar üçün psixoloji-mənəvi gərginlik yaratmaqda məqsədi nədir? Görünür, bu da səbəbsiz deyil, müəyyən digər hədəflər də vardır!

***"Region" Analitik Mərkəzi***

# Xəyanətlər açıldıqca...

## Çamura bulaşmış Əli Kərimlinin cinayətkar əməlləri...

***AXCP sədri Əli Kərimli, elə zənn edir ki, bu 25 ildən də çox müddət ərzində, etdiyi cinayət və xəyanətləri heç kim bilmir. Yanılırsan, ay satqın! Nə bilirdin, Ə.Kərimli? Haqq nazilər, amma üzülməz. Ancaq Bakı Ağır Cinayətlər Məhkəməsi, AXCP sədrinin xəyanətkar əməllərini üstündən qara pərdəni götürməklə bir çox faktların üzə çıxmasını aşkarladı. Bu, böhtan deyil. Məhkəmə zamanı şahid qismində dindirilənlərin verdikləri ifadələr bir daha AXCP sədri Ə.Kərimlinin xarici qüvvələrin göndərdiyi maliyyəni əldə etmək məqsədi ilə ölkədə təxribatlar törətmək istəyini sübuta yetirdi. Dindirilən şahidlər Elçin Əsgərbəyli, Cavid Məsimli, Tural Mehdixanov və Cavanşir Abışov AXCP sədrinə vəsait toplanıldığını və bu pulların Ə.Kərimliyə çatdığını bildirdilər. Hələ, üstəlik, AXCP sədrinə Rusiyada da toplanılan vəsaitlərin qanunsuz yollarla Ə.Kərimliyə çatdırıldığı da bildirildi.***



### Növbəti düyün... AXCP ilə “Milli Şura”nı bir-birinə qatdı

Növbəti düyün isə şahidlərin verdikləri açıqlama oldu. Bu açıqlama isə, AXCP ilə “Milli Şura”nı bir-birinə qatdı. Bildirildi ki, 2013-cü ilin prezident seçkiləri ərəfəsində Rusiyada hazırlanıb, Bakıya ixrac edilən “Milli Şura”nı Rusiya vətəndaşlığı olan kinorejissor Rüstəm İbrahimbəyov gətirsə də, bu “ölü” quruma sədrlik etməməklə, bir daha satqınlığını ortaya qoydu. Yenə də “şeytanla əməkdaşlığı” əldən verməyən Ə.Kərimli “Milli Şura”nı AXCP-nin bir şöbəsinə çevirdi və ondan bərk yapışdı. Ən tutarlı məqam isə, məhkəmə zamanı cəbhəçilərin Ə.Kərimlinin üzünə duraraq, təsdiqləyiblər ki, həqiqətən də, Rusiyadan hər ay AXCP-yə, müntəzəm olaraq, 30 min dollar pul gəlib. Vəziyyətin belə alınacağını görən Ə.Kərimli bunun hesabatını saxta şəkildə verərək, bildirib ki, guya hər ay Rusiyadan ona 500, bəzən 1000 dollar məbləğində dəstək gəlir.

### Düz 30 dəfə saxtakarlıq!

İnanılası deyil. Çünki Ə.Kərimli saxtakarlığı sonsuzdur. Faktlara diqqət yetirək. Moskvadan hər ay “Milli Şura” və AXCP adlı qurumlara nə az - nə çox - 412 min dollar vəsait daxil olub. Milli Demokratiya İnstitutu tərəfindən ayrılmış 140 min dollar, Avropa İttifaqı Nümayəndəliyi Demokratiya və İnsan Hüquqları üzrə Avropa Aləti və Qeyri-Dövlət İştirakçıları (QDİ) proqramları çərçivəsində, 9 milyon manata yaxın vəsait, Avropa Komissiyasının xəttilə ayrılan 2,7 milyon avro, ABŞ-ın Azərbaycandakı səfirliyindən 15322 dollar, Dünya Bankından 10500 dollar, “Revenue Watch Institute” (ABŞ) 30000 dollar, “Asiya İnkişaf Bankı” üzrə QHT Forumundan 4720 dollar, ABŞ-ın Demokratiyaya Milli Dəstək Fondundan (NED) 40250 dollar, Böyük Britaniyanın Azərbaycandakı səfirliyindən 5000 funt sterlinq, Açıq Cəmiyyət İnstitutu - Yardım Fondundan 19615 dollar, yenə də NED-dən 42796 dollar, ABŞ-ın “Kounterpart İnterneşnl” Beynəlxalq Humanitar Təşkilatının Azərbaycandakı nümayəndəliyindən 29448 manat, ümumilikdə isə, iki ildə 210000 dollar, ABŞ-ın Marşal Fondundan (GMF) 21800 dollar, Avropa Birliyindən 120374 avro əldə edilib.

Ümumilikdə, AXCP-yə yaxın QHT-lərə, təxminən 800 min dollar vəsait ayrılıb ki, bu vəsaitin 60 %-i, yəni 500 min dollara yaxını birbaşa Ə.Kərimlinin şəxsi büdcəsinə daxil olub. Məhz bu faktlardan sonra Ə.Kərimli, görəsən, hansı “üzlə” basıb-bağlayır?

### Eynulla Fətullayev: “Əli Kərimli quduzlaşmış oğru itlərindən də pisdir”

Jurnalist Eynulla Fətullayev özünün “facebook” hesabında AXCP sədrini və onun tərəfdarlarını oğru itlər adlandırıb: “Ə.Kərimli və digər murdar cəbhənin virusları oğru itlərdir. AXCP sədri Ə.Kərimlinin sosial şəbəkələrdə ABŞ-da yaşayan xəyanətkar S.Osmanqızının verilişindən xalqı iqtidarın deyil, müxalifətin mətbuat orqanlarını oxumağa çağırış etməsi, əsl satqınçılıq, xəyanətkarlıq, riyakarlıq və nəhayət, həyasızlıqdır. 24 il ərzində dəyişməyən iyrənc alçaqları Azərbaycan siyasətindən, Azərbaycan məmləkətindən tamamilə silmək lazımdır!..”

### Lalə Şövkət: “Əli Kərimli nə vaxtdan kişi olub? Kişi olmaq Əli Kərimliyə aid deyil”

“Milli Birlik Hərəkatı”nın sədri Lalə Şövkət dəfələrlə Ə.Kərimlini alçaq və əxlaqsız adlandırıb: “Azərbaycan siyasətində Ə.Kərimli kimi belə bir mənəviyyatsızı görməmişdim. Adam düşmən olanda, gərək kişi kimi düşmən olsun. Ə.Kərimlidən çox alçaq səviyyəli düşmənçilik gördüm. Əslində, Ə.Kərimlinin kimliyi haqqında çox yazılıb, çox deyilib. Ancaq “kişi” olmaq Ə.Kərimliyə aid deyil”.

Bu, həqiqətən də, belədir. Vətən xainlərinin torpağına, elinə və obasına ermənidən betər qənim kəsilən namərdlər heç vaxt kişi sayılmayıb. Ancaq xalqın nifrətinə məruz qalıblar. Bax, bu marginallar unudurlar ki, anti-Azərbaycan dairələrin qrant paylayan üfunətli ofislərinin mərmər döşəmələri üstündə gəzib özgə yalı ilə yallanmaqla heç nəyə nail ola bilməyəcəklər. Kərimlililər bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin (həm də düşmənin) yalı ilə bəslənənləri tarix heç vaxt bağışlamır.

***Rəfiqə HÜSEYNOVA***

# Ermənistanın KTMT-də məğlubiyyəti və irəlidəki əsas döyüş



Belarusiyanın nümayəndəsi Stanislav Zasyanın KTMT baş katibi vəzifəsinə namizədliyi irəli sürülüb. Bu namizəd təsdiq edildiyi təqdirdə, 2020-ci il yanvarın 1-dən KTMT baş katibinin vəzifələrini Stanislav Zasya icra edəcək. SİA xəbər verir ki, bu barədə Ermənistana məxsus tert.am saytı “Jamanak” qəzetində dərc olunan məqaləyə istinadən məlumat yayımlanıb.

Məlumatda qeyd olunur ki, məxməri inqilabdan sonra Ermənistanın öz nümayəndəsi Yuri Xaçaturovu geri çağırması ilə açıq qalan KTMT baş katibliyi məsələsi bununla da öz həllini tapacaq. Paşinyan dəfələrlə bəyan edib ki, Ermənistan üçün KTMT baş katibliyi vəzifəsi deyil, formal hərbi-siyasi blokda hansı münasibətlərin hökm sürəcəyi maraqlıdır. Əslində, blok üzvlərinin Ermənistana münasibəti nöqteyi nəzərdən bu ölkədə narahatlıq da inkar edilə bilməz. Xüsusən, həmin müddətdə Belorusiyanın uzaq mənzilli “Polonez” raketlərini Azərbaycana satması bu narahatlığı bir az da artırıb.

Qəzet yazır ki, Ermənistan indi tərəddüd içindədir, görəsən bu ölkənin qələbəsidir, yoxsa məğlubiyyəti? Bir çoxları bunun qələbə olmasına inanmaq istəsələr də, əslində, bunun məğlubiyyət olduğunu təkzib etmək də mümkün deyil. Hətta nümunə olaraq Xaçaturovun bu mövqedə olduğu dövrdə Ermənistan üçün hansı fərqin olduğu, daha doğrusu, heç bir fərqin olmadığı da düşünülür. Düşünülür ki, problem daha dərindir və bu ölkəyə münasibət təkcə KTMT baş katibindən asılı deyil və üzv ölkələrin münasibəti bu zaman əsaslı rola malikdir. Əgər bu hərbi-siyasi blok Ermənistanın təhlükəsizliyi məsələlərini müdafiə etməzsə, dəstəkləməzsə, bu işğalçı ölkənin qələbəsindən danışmağa dəyməz. Hadisələrin gedişi isə belə bir dəstəyə ümidləri puça endirir. Ermənistan üçün də öz növbəsində mövqelərini müdafiə etmək daha vacibdir və bu baxımdan bu ölkə üçün əsas döyüş hələ irəlidədir.

***İnam Hacıyev***



# Bolton Qriqoryanı rədd edib!

Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın ABŞ-a səfəri kifayət qədər uğursuz keçib. SİAxəbər verir ki, bu barədə ölkənin “Hraparak” qəzeti yazır. Belə ki, Qriqoryan ABŞ-da olarkən, XİN-nin inadkar fəaliyyətinə baxmayaraq, o yüksək səviyyəli görüşlər keçirə bilməyib.

Erməni nəşri yazır ki, ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton Ermənistan TŞ katibi ilə görüşdən imtina edib. Nəticədə Qriqoryan Boltonun ofisinin sıravi nümayəndəsi ilə görüşməli olub. Qəzet onu da xatırladır ki, Bolton Yerevana səfəri zamanında da Qriqoryanla tet-a-tet görüşdən imtina etmişdi. Qeyd olunur ki, A.Qriqoryanın ABŞ səfərinin ardınca onun Rusiyaya getmək planı var.

***Rövşən***

# "Amnisty İnternational" erməni lobbisinin sifarişini yerinə yetirir

***Rüşvətxorluqda korrupsiyada və qeyri-fəaliyyət metodları ilə tanınan "Amnisty İnternational" təşkilatı UEFA Avropa Liqasının finalının Azərbaycanda keçirilməsini tənqid edib və səbəbini Azərbaycanda insan hüquqlarının pozulması ilə əlaqələndirib. Rüşvətxorluqda və korrupsiyada ittiham edilən və buna görə də, dəfələrlə məhkəmələrə çəkilən bir təşkilatın Azərbaycanı günahlandırması nə dərəcədə düzgündür? Söhbət etdiyimiz müsahiblərimiz bu təşkilatın məkrli siyasi anti-Azərbaycan mərkəzlərin sifarişini yerinə yetirdiyini söylədilər.***

### "Paralel" qəzetinin baş redaktoru Tapdıq Abbas: "Amnisty İnternational"ın hesabatı Azərbaycana olan düşmənçilik münasibətin tərkib hissəsidir"



- "Amnisty İnternational" təşkilatının mayın 29-da Bakıda keçiriləcək "Arsenal"-"Çelsi" komandalarının UEFA Avropa Liqasının kuboku uğrunda final yarışının Azərbaycanda keçirilməsini tənqid etməsi, eyni zamanda, ölkəmizdə insan haqlarının pozulmasını gündəmə gətirməsi düşmənçilik məqsədilə Azərbaycana qarşı törədilən və silsilə şəklində həyata keçirilən, məzmunu yalan, böhtan və qərəzdən ibarət olan əks-təbliğat kampaniyasının tərkib hissəsi hesab edirəm. "Amnisty İnternational" təşkilatının tənqidi, bir neçə gün öncə, yayılan Böyük Britaniya XİN-in Bakıya İngiltərədən futbol oyununu izləməyə gələcək futbol həvəskarlarına verdiyi qərəzli tövsiyənin davamı kimi qiymətləndirirəm. Biz Azərbaycana qarşı edilən belə düşmənçilik hərəkətləri ilə ilk, dəfə qarşılaşmırıq. Bu cür düşmənçilik hallarını "Avrovijn" Mahnı Müsabiqəsinin, o cümlədən, 2015-ci ildə Birinci Avropa Oyunlarının Bakıda keçirildiyi ərəfədə də müşahidə etmişik və ölkəmizə qarşı bu cür düşmənçilik hallarının baş verməsinə artıq vərdiş etmişik. Baş verənlərin mahiyyətinin xalqımıza qarşı olan istəyin təzahürü olduğunu düşünmürük, necə deyərlər, düşmən ölkəmizə qarşı düşmənçiliyini edir, biz isə işimizə davam edib, UEFA Kubokunun final oyununun da uğurla keçməsini təmin edəcəyik. Əminəm ki, Qərbdən gələn bu cür təhdidlər ölkəmizdə hökm sürən sabitliyin, əmin-amanlığın, vətəndaş həmrəyliyinin pozulmasına deyil, daha da möhkəmlənməsinə xidmət edəcək!



### AMİP funksioneri Əli Orucov: "İdman, musiqi kimi sahələr xalqlar və millətlər arasında birləşdirici faktor olmalıdır"

- İdman, musiqi kimi sahələr xalqlar və millətlər arasında birləşdirici faktor olmalıdır. Hər iki sahə siyasiləşdirilməməlidir. Çox təəssüflər olsun ki, Azərbaycanda keçir "Avrovizion" mahnı yarışması öncəsi də eyni dəst-xətti gördük. İndi də UEFA Avroloqanın Bakıda keçirilən final yarışması ərəfəsində də, kimlərsə tədbirə kölgə salmağa cəhd göstərir. Lakin inanmıram ki, bu tip cəhdlərlə yüksək səviyyəli turnirin keçirilməsinə əngəl törədilsin. 2022-ci ildə dünyanın ən qeyri-demokratik ölkələrindən biri, mütləq monarxiyalı Qətər futbol üzrə Dünya Çempionatına ev sahibliyi edəcək. Nə əcəb, həmin beynəlxalq təşkilatlar planetin ən böyük və ən çox izlənilən bu yarışının bu ölkədə keçiriləcəyinə irad və etirazlar bildirmirlər? Erməni işğalından, təcavüzündən canını güclə qurtaran 1 milyon insanımızın da təbii və beynəlxalq qanunlarla qorunan hüquqları da var. Burda da susqunluq nümayiş edilməməlidir.

**GÜLYANƏ**

---

## "Ermənistan hakimiyyətini Soros idarə edir"



Adekvad ictimai təşkilatının üzvləri Ermənistanda ədalət məhkəməsinin keçid dövrü barədə dinləmələrə görə etiraz aksiyası keçirir. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan informasiyaya istinadən xəbər verir ki, etiraz aksiyası hal-hazırda davam edir. "Ədalət məhkəməsinin keçid dövrü ifadəsi Soros fonduna məxsusdur. Ədalət məhkəməsinin keçid dövrü beynəlxalq təşkilatının eksperti Ruben Karanza dinləmələrdə həm iştirak edir, həm də çıxış edir. Ötən il Soros fondunun direktoru Larisa Minasyanın dəvəti ilə o, Nikol Paşinyanla görüşüb, lakin bu fakt hökumət tərəfindən gizlədilib", -deyə "Aekvad" təşkilatının üzvü Harek Malyan jurnalistlərə bildirib. Onun sözlərinə görə, Ermənistan hakimiyyətini Soros idarə edir.

## Türkiyə əsas terrorçunu məhv etdi




Türkiyənin təhlükəsizlik qüvvələri PKK-nın əsas terrorçularından olan Ferhat Akgünü və daha bir terrorçunu məhv edib. SİA xəbər verir ki, Türkiyə mediasının yazdığına görə, Akgünün adı ölkə DİN-nin "boz siyahısında" yer alıb. Adıçəkilən terrorçunun yerinin müəyyənləşdirilməsi ilə bağlı hakimiyyət tərəfindən 300 min türk lirəsi mükafat olaraq təyin edilmişdi. Qeyd olunur ki, Ferhat Akgün "Sorej Tatvan" kod adı ilə tanınırdı.

## Rusiyanın Ermənistana verdikləri onu qudurdub

### *Mübariz Əhmədoğlu: "Rəsmi Yerevan Rusiya hərbi bazasının Ermənistandan çıxarılması məsələsini aktuallaşdırdı"*

***"Bir qrup rusiyalı jurnalist Yerevanda olarkən, Ermənistan xarici işlər naziri E.Mnatsakanyana Rusiyanın hərbi bazası ilə əlaqəli sual verdilər və Mnatsakanyanın verdiyi izahlı cavabı, hələlik, "yox" anlamında olmalı idi. Maraqlı cəhət belə sualın indi gündəliyə gətirilməsindədir". Bu fikirləri politoloq Mübariz Əhmədoğlu sözügedən məsələni şərh edərkən deyib. Onun sözlərinə görə, rusiyalı jurnalisti təcrübəsizlikdə ittiham etmək mümkün deyil: "Rusiya Xarici İşlər Nazirliyi jurnalist nümayəndə heyətinin Ermənistana səfərinin təşkilatçısıdırsa, adətən, əvvəlcədən belə sualların tərtibi müzakirə olunur. Ola bilər, Rusiya jurnalistlərinin səfərini Ermənistanın Rusiyadakı səfirliyi və ya Moskvada yaşayan imkanlı ermənilərdən biri təşkil edib. Belə sual verməyi də, məhz onlar özləri təşkil ediblər.***



Rusiya bayrağını tapdayan şəxsin qubernator təyin edilməsi, Fransa vətəndaşı, keçmiş mədəniyyət naziri, kəskin anti-Rusiya mövqeyə malik Nazenin Qaribyanın MDB strukturlarında Ermənistanın təmsilçisi kimi təyin olunması, əslində, antirusiyaçılığın yeni dalğasının N.Paşinyan tərəfindən başlandığını göstərir və bu məsələnin uzun müddət davam edəcəyinin də işartılarıdır. Ehtimal ki, Rusiya hərbi bazasının Ermənistandan çıxarılması mövzusu Serj Sarkisyanın N.Paşinyana kuratorluğu ilə əlaqədardır".

### "Dağlıq Qarabağ məsələsi SSRİ-nin dağılmasında əsas müstəvilərdən biri olub"

"S.Sarkisyan prezidentliyi dövründə, çox kəskin anti-Rusiya siyasəti apardı, amma bunu ermənisayağı qaydada reallaşdırdı" deyə qeyd edən M.Əhmədoğluna görə, S.Sarkisyan açıq şəkildə bildirdi ki, SSRİ dövrü ermənilər üçün cəhənnəm olub, S.Sarkisyan qürurla bildirdi ki, Dağlıq Qarabağ məsələsi SSRİ-nin dağılmasında əsas müstəvilərdən biri olub, "Şərq Tərəfdaşlığı Proqramması"na kifayət qədər anti-Rusiya fonu da o verdi: "Rusiya hərbi bazasının Ermənistandan çıxarılması mövzusu dəfələrlə müzakirə edildi. Bu müzakirələrdə Avrasiya İqtisadi Komissiyasının sədri, Ermənistanın keçmiş baş naziri Tiqran Sarkisyan da iştirak etdi. Sarkisyan dəfələrlə Avropa İttifaqının rəhbərləri ilə Şimali Qafqazda vəziyyətin gərginləşməsi yollarını müzakirə edib. "Çərkəz soyqırımı"nın tanınması məsələsi S.Sarkisyanın dövründə xeyli aktual idi. İndi N.Paşinyan, Rusiyaya yaltaqlanmaqla yanaşı, bayrağı tapdalayan qubernatoru işdən çıxarmaq istəmir, hətta anti-Rusiya mövqeli şəxsi MDB strukturlarının birində Ermənistanın təmsilçisi kimi təyin edir. Bunlar təsadüfən baş verməyib. Hadisələrin təsadüfən üst-üstə düşməsi məsələsi də deyil".

### "Rusiya Ermənistana verdiklərini geri almağa başlamalıdır"

Politoloq onu da bildirib ki, ABŞ-la Ermənistan arasında ciddi müzakirələr gedir: "Beləliklə, artıq istiqamət aydındır. Rusiya N.Paşinyanın S.Sarkisyanın kursunu davam etdirməsinin qarşısını almalıdır. Çünki indi Rusiya üçün təhlükələr, heç də əvvəlki dövrlə müqayisədə, azalmayıb. Ermənistanın antirusiyaçılığının kökündə Rusiyadan vaxtilə aldıqları dayanır. Rusiyanın Ermənistana verdikləri onu qudurdub. Rusiya Ermənistana verdiklərini geri almağa başlamalıdır. Bu, Zəngəzurun Azərbaycana qaytarılmasından və sonra da Dağlıq Qarabağın işğaldan azad olunmasından başlayan bir proses olmalıdır."

**Rövşən RƏSULOV**

# Bəs sən haradaydın, Əli Kərimli?

## Yaxud Fuad Abbasov üzərindən özünüreklam siyasəti - görünən tərəflər

***Jurnalist Fuad Abbasovun Rusiyada erməni lobbisinin və diasporasının sifarişi əsasında, həbs olunaraq, zorakılığa məruz qalması, o cümlədən, deportasiyası ilə bağlı verilən qərarın ardınca, istər Azərbaycanda, istərsə də digər ölkələrdə yaşayan soydaşlarımız etiraz səslərini ucaldaraq, Vətən oğluna qarşı tətbiq edilən bu hərəkətləri pislədi, hətta qardaş Türkiyədə belə, ona dəstək kampaniyalarına başladıldı. O cümlədən, minlərlə insan petisiya imzalayaraq, bu məsələdə təəssübkeşliyini nümayiş etdirdi. Yeganə səsi çıxmayan tərəf isə, AXCP sədri Əli Kərimli və onun ətrafı oldu. Daha doğrusu, adıçəkilən fərd yenidən klaviatura arxasına qaçaraq, F.Abbasova qarşı tətbiq edilən zorakılığı guya (!) qınadığını yazdı və...***

### Xəstə təfəkkür və çürük düşüncə tərzi

Əlbəttə, öz izafi idbarçılıq ənənəsinə sadiq qalaraq, F.Abbasovun başına gələnləri hakimiyyətin üzərinə yığmağa cəhd etdi. Hətta jurnalisti dövlətçilik prinsiplərinə görə, həyasızcasına tənqid etdi. Məsələn, mən Fuad bəyi şəxsən tanımıram. Onun fəaliyyətinin incəliklərindən xəbərim yoxdur. Mümkündür ki, onun da fəaliyyətində hansısa yanlışlıqlar və tənqid ediləsi məqamlar var" yazan qaragüruhçu Əli burada, bilavasitə F.Abbasovun Azərbaycan iqtidarına olan siyasi baxışına eyham vurub. Yəni AXCP sədrinin F.Abbasova qarşı "fəaliyyətində hansısa yanlışlıqlar, tənqid edil?si məqamlar var" tipli sərsəm ifadəsindən başqa hər hansı bir nəticəni çıxarmaq olmaz! Deməli, Ə.Kərimli həmin münasibəti ilə bir daha sübut etdi ki, hətta ümummilli məsələlər baxımından, xarici ölkələrdə, o cümlədən, Rusiyanın siyasişovinist dairələrində, mediasında sinəsini qabağa verib, Azərbaycanın haqq səsini ucaldan və hakimiyyətin mövqeyini dəstəkləyən, kim olursa-olsun, onun düşmənidir və tənqidə məruz qalmalıdır (?!-R.N.). Budur,



Kərimlinin xisləti və xəstə təfəkkürə malik çürük düşüncə tərzi!

### Əli Kərimli özü-özünü belə vurur

Digər tərəfdən, AXCP sədri buraxdığı quşunu elə özü də düzəltməyə çalışıb. Guya F.Abbasovun iqtidarın mövqeyini dəstəkləməsi Ə.Kərimli üçün heç nəyi dəyişmir və o, F.Abbasovu Azərbaycanın milli maraqlarını müdafiə etməsinə görə tanıyıb və s. və i. Yaxşı, əgər sən - Ə.Kərimli F.Abbasovun atdığı addımlarının, heç nəyi dəyişmədiyini deyirsənsə, bəs xeyir ola, ondan da qabaq fəaliyyətində yanlışlıqların və tənqidi məqamların olduğuna eyham vurursan? Sənə elə gəlmirmi ki, təkcə bu kimi dar düşüncən ilə, əslində, özün öz sözünü vurursan, Ə.Kərimli?!

Beləliklə, zatən, hamının bildiyi hadisələri - F.Abbasovun Rusiya teleməkanında müxtəlif siyasi polemikalarda ermənilərin işğalçılıq siyasətinə qarşı qətiyyətli mübarizəsini, eləcə də, çeçənlərlə azərbaycanlılar arasında nifaq yaratmaq üçün işə salınan erməni məkrini ifşa etməsini yazan AXCP sədri, sadəcə, "Facebook"-dakı statusunun necə deyərlər, "obyomlu" (böyük) görünməsi üçün dəridən-qabıqdan çıxıb. Fəqət, nə qədər dəridən-qabıqdan çıxsa belə, daxilindəki idbarçılıq şakərini gizlədə bilməyib.

Fuadın Rusiyadakı erməni diasporu ilə təkbaşına üz-üzə gəlib, işğalçılıq faktlarını sifətlərinə çırpmasında və nəticədə, sifarişlə həbs olunmasında, bilavasitə sənin də günahın var, Əli Kərimli!

Ona görə də, əlqərəzini gətirib çıxarıb Azərbaycan hakimiyyətinin üzərinə! Demə, "Azərbaycanda milli maraqlardan çıxış edən bir hakimiyyət olsaydı, o, mütləq jurnalist F.Abbasovun Rusiyadakı fəaliyyətini qiymətləndirərdi və ona dəstək verərdi" və s. Bu zaman növbəti sual yaranır: bu qaragüruhçu bəyciyəzə - Əli Kərimli, sənin AXC hakimiyyətin, deyəsən, "milli" idi axı, özü də o qədər "milli" idi ki, ölkədəki etniklərə qarşı hansı rüsvayçı oyunlardan çıxmanız barədə kifayət qədər materiallar arxivlərdə qalmaqdadır. Sənin "milli" hakimiyyətin vaxtı, liderin Elçibəy türk bayrağının Çində və Uyğurustanda dalğalanacağını bəyan etməklə, milyardlıq əhalisi olan Çin də qayıdıb "milli hökumətinə" nota vermişdi. Nəhayət (!), sənin "milli" hakimiyyətin Qarabağ torpaqlarını sata-sata ermənini az qala Gəncəyə, Yevlaxa və Beyləqana qədər gətirtmişdi!

Bu gün F.Abbasovun Rusiyadakı erməni diasporu ilə təkbaşına üz-üzə gəlib, işğalçılıq faktlarını sifətlərinə çırpmasında və nəticədə, sifarişlə həbs olunmasında, bilavasitə sənin də günahın var, siyasi dəyyusluğun bariz təcəssümü olan Əli Kərimli! Bilirsənmi nəyə görə? Çünki sən və sənin "milli hökumətin" satıb Qarabağımızı!

### Sən və sənin kimi xədicəvarilər onu "qatil" adlandırdınız, ya da onu "qatil" adlandıranlara qarşı cınqırınızı belə çıxarmadınız!

İndi düşmüsən hökumətin üstünə ki, niyə Rusiyaya F.Abbasovun həbsi üçün imkan verdi, filan-beşməkan?.. Yaxud yaxapaça qışqırıb, özünü divara dırmaşdırırsan ki, dövlət hər bir vətəndaşına sahib çıxmalıdır və s. Dövlət öz vətəndaşlarına harada olursa-olsun sahib çıxır və çıxacaq da. Mən, uzağa getməyərək, elə qəhrəman zabitimiz Ramil Səfərov reallığını ortaya qoyuram, Əli Kərimli! Həmin Ramil Səfərov reallığını ki, ömürlük həbs cəzası almışdı və dövlət öz zabitinə və vətəndaşına sahib çıxdı. Ancaq sən və sənin kimi xədicəvarilər onu "qatil" adlandırdınız, ya da onu "qatil" adlandıranlara qarşı cınqırınızı belə çıxarmadınız, niyə? Hansı səbəbə görə?! Deyərmisən-deməzmisən, Ə.Kərimli?!

İndi, həmin bu axecepeçilərin pambıq bəyi millətə dərs keçməyə cəhd edir, F.Abbasova qarşı zorakılığı pisləməyə çağırır. Onda Azərbaycan vətəndaşları Rusiyanın Azərbaycandakı səfirliyi qarşısında toplaşıb, etiraz səslərini ucaldanda, haradaydın ay ... ???

***Rövşən NURƏDDİNOĞLU***

# "Azərbaycan bizi sevməyən qüvvələrə öz əməli ilə dərin peşmançılıq hissi yaşadacaq"

"Amnisty İnternational" təşkilatı hər zaman Azərbaycana qarşı qərəzli mövqedə dayanıb. Bu təşkilatda Azərbaycana qarşı qərəzli münasibət artıq ənənə halını alıb. Bu baxımdan həmin təşkilatdan ölkəmizlə bağlı ədalətli mövqe və ya bəyanat gözləməli deyilik". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Fəzail Ağamalı deyib. Sözügedən təşkilatın arxsında anti-Azərbaycan qüvvələrinin dayandığını deyən deputat bildirib ki, erməni lobbisinin maliyyəsi ilə " fəaliyyət" göstərən bu kimi təşkilatlar Azərbaycana qarşı qərəzli mövqeyini hər zaman nümayiş etdirirlər: "Müxtəlif bəhanələrdən istifadə edərək məkrli mövqelərini ortaya qoyublar".

F.Ağamalı söyləyib ki, hazırda təşkilatın Avropa Liqasının final oyununun Bakıda keçirilməsindən istifadə edərək ölkəmizə qarşı münasibətini görürük: "Çox təəssüf ki, həm "Arsenal", həm də Böyük Britaniyanın rəsmi qurumları xoşagəlməz münasibətini ifadə etməkdədirlər. Onlar Azərbaycanla bağlı tövsiyələrində "yeməkdən zəhərlənə bilərsiniz" kimi absurd fikir irəli sürmək, ölkəmizin hava məkanı ilə bağlı müxtəlif bəhanələr gətirmək, biletlə əlaqədar yanlış məlumatlar yaymaqla yanaşı, hazırda digər cinahdan ölkəmizə qarşı şər və böhtan kampaniyası irəli sürməyə çalışırlar".

Deputat vurğulayıb ki, bu və bu kimi təşkilatların "qarayaxma" cəhdləri keçərli deyil: "Çünki, Azərbaycan dünya miqyasında özünü ən təhlükəsiz ölkələrdən biri kimi təsdiq edib. Vaxtilə "Avroviziya" musiqi yarışması, daha sonra I Avropa, İslam Həmrəylik və elecə də digər beynəlxalq tədbirlər ərəfəsində də buna bənzər hallarla rastlaşmışıq. Azərbaycan bütün bu yarışmaları ən yüksək səviyyədə keçirməklə yanaşı, mühüm tədbirlərə yüksək ev sahibliyi etmək qabiliyyətini ortaya qoyub". F.Ağamalı qeyd edib ki, Azərbaycan təkcə idman yarışları deyil, eləcə də siyasi, humanitar, sosial, mədəniyyət sahələrini əhatə edən beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib: "Hətta Rusiya və ABŞ hərbiçilər də dünya səviyyəli münaqişələri müzakirə etmək üçün Bakını seçirlər".

Böyük Britaniya Azərbaycan arasında münasibətlərində indiyədək heç bir problem yaşanmadığını deyən deputat qeyd edib ki, hazırda onlar tərəfindən səslənən fikirlər təəssüf və gülüş doğurur: "Azərbaycan bütün bunlara əhəmiyyət vermir, əksinə daha da güclənir, beynəxalq səviyyədə nüfuzu daha da yüksəlir. Mən əminəm ki, mayın 29-da futbol bayramına çevriləcək hadisə Bakıda yüksək səviyyədə baş tutacaq. Azərbaycan öz əməli, fəaliyyəti ilə bu qüvvələrə dərin peşmançılıq hissi yaşadacaq".

# "Nar"-ın da dəstəyilə ADA Universitetində uğurlu innovativ layihələr seçilib

Ölkənin ən gənc mobil operatoru olan "Nar"-ın da dəstəklədiyi "ADA Innovation Awards 2019" mükafatının final mərhələsinin qalibləri müəyyən edilib. Belə ki, əsas məqsədi tələbələrə innovativ ideyalarını irəli sürməklə öz startapını başlamaq və real biznes qurmasına şərait yaratmaq olan müsabiqədə 1-ci yeri "Who is around", 2-ci yeri "SafeSound", 3-cü yeri isə "Oracins" layihələrini irəli sürən tələbələr qazanıb. Qalib layihələrin müəllifləri müxtəlif pul mükafatları ilə təltif edilib. Eyni zamanda 2019-2020-ci tədris ilində "ADA İnnovasiya Mərkəzinin sakinləri" titulunu qazanıblar.




"Texnologiyaların sürətlə inkişaf etdiyi bir dövrdə gənc nəslin innovasiyalara açıq olduğundan və tətbiq imkanlarını anladıqlarından əmin olmalıyıq. Buna görə də, "Nar" olaraq növbəti dəfə gənclər üçün böyük əhəmiyyət kəsb edən bu tədbirin tərəfdaşlarından biri olmaqdan məmnuniyyət duyuruq. Gənclərin intellektual inkişafına dəstək vermək bizim KSM strategiyamızın əsas istiqamətlərindən biridir və onların innovativ ideyalarını hər zaman dəstəkləməyə hazırıq", - deyə "ADA Innovation Awards 2019" qaliblərinin seçilməsi üçün münsif qismində dəvət edilən "Nar"-ın İctimaiyyətlə Əlaqələr departamentinin rəhbəri Əziz Axundov bildirib. O qeyd edib ki, təqdim edilən layihələri dəyərləndirərkən tələbələrin gündəlik problemlərə innovativ yanaşmasını görmək çox sevindiricidir.

"Nar" və ADA Universiteti arasında əməkdaşlıq çərçivəsində nəzərdə tutulmuş layihələr arasında ADA Universiteti Fondu ilə əməkdaşlıq, ADA-nın tələbə və məzunları üçün karyera və staj imkanlarının təklif edilməsi, Universitetin ixtisasartırma proqramlarına "Nar" operatoru əməkdaşlarının cəlb edilməsi kimi tədbirlər də mövcuddur. "Nar"-ın KSM strategiyası haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.

# Avropa Məhkəməsinin hüquq pozuntusuna dair qərarları

***Məhkəmə-hüquq pozuntusunun bəyan edilməsi ilə kifayətlənir və bu barədəki qərar deklarativ xarakter daşıyır. Digər qərarlarda məhkəmə cavabdeh-dövlətin üzərinə zərərçəkən tərəfə ədalətli kompensasiya ödənilməsi öhdəliyini qoyur. Z.Əliyev yazır: "Ədalətli kompensasiya özündə mənəvi zərəri, maddi ziyanı və məhkəmə xərclərini ehtiva edir. Bəzi hallarda fərdin hüququnun pozulması faktının məhkəmə tərəfindən bəyan edilməsinin özü "ədalətli kompensasiya" hesab olunur:***

- ədalətli kompensasiyanın ödənilməsini nəzərdə tutan 41-ci maddəni Konvensiyada nəzərdə tutulan yeganə "sanksiya" kimi qiymətləndirmək olar.

Məhz buna görə də, o, imperativ xarakter daşıyır:

- Məhkəmənin presedent hüququnda mənəvi zərərə görə kompensasiyanın təyin edilməsi meyarları dəqiqləşdirilməlidir;
- Məhkəmənin presedent hüququndan çıxış edərək, qeyd etmək olar ki, fikrimizcə, məhkəmə bəzi qərarlarında ədalətli kompensasiyanın sui-generis növünü müəyyən etmişdir;
- Avropa Məhkəməsi qərarının icrası öhdəliyi cavabdeh-dövlətin bütün müvafiq orqanlarına aid edilir. Avropa Məhkəməsinin qərarları dövlət orqanları, o cümlədən, məhkəmələr üçün də məcburidir."

Məhkəmənin konkret qərarını icra edərkən dövlət, həmçinin, ümumi tədbirlər də həyata keçirməlidir. Bu, dövlətin həm qanunvericiliyini və inzibati praktikasını Konvensiyaya uyğunlaşdırmaq, həm də gələcəkdə analoji pozuntuların qarşısını almaq öhdəliyindən irəli gəlir.

Avropa Məhkəməsinin qərarlarının iş üzrə tərəf olan dövlət tərəfindən icra edilməməsi halında belə, dövlətə qarşı ciddi sanksiyalar nəzərdə tutan müddəanı özündə ehtiva edən Avropa Konvensiyasına əlavə Protokol qəbul edilməlidir. Həmçinin, Avropa Məhkəməsinin qərarlarının iş üzrə tərəf olan dövlət tərəfindən gecikdirilmədən icra edilməsinin təmin edilməsi məqsədilə qərarların icrasına nəzarəti həyata keçirən Nazirlər Komitəsinə əlavə səlahiyyətlər verilməli və bu məqsədlə Şuranın Nizamnaməsinə müvafiq dəyişiklik edilməlidir.

Təcrübə göstərir ki, bir sıra hallarda iş üzrə tərəf olan dövlət ona qarşı çıxarılan qərarın icrası üçün yalnız ədalətli kompensasiya qismində məhkəmə tərəfindən müəyyən edilmiş məbləği ödəməklə kifayətlənir, qərardan irəli gələn digər öhdəlikləri isə yerinə yetirmir və ya bunu etməyə tələsmir. Belə halların qarşısının alınması üçün AŞNK iş üzrə tərəf olan dövlətin qarşısında qərardan irəli gələn bütün öhdəliklərin (həm fərdi, həm də ümumi tədbirlərin həyata keçirilməsi) məhkəmə tərəfindən müəyyən edilmiş, konkret müddət ərzində, yerinə yetirilməsi tələbi ilə çıxış etmək səlahiyyətinə malik olmalıdır.

Məhkəmənin qərarlarının vaxtında və səmərəli icrasının təmin edilməsi məqsədilə bu prosesə AŞ İnsan Hüquqları üzrə Komissarı və milli insan hüquqları təsisatları, əsasən də, Ombudsman təsisatları cəlb edilməlidir. Həmçinin, Avropa Konvensiyasının 38-ci maddəsinə müvafiq olaraq, işin dostcasına həlli prosedurunun səmərəli olması üçün bu prosesə vasitəçilik funksiyaları yerinə yetirən Ombudsman Təsisatının cəlb edilməsi məqsədəmüvafiq olardı;

Dövlətlərin Avropa Məhkəməsinin qərarlarının icrası sahəsində vəziyyətə dair hesabatı kimi təqdim edilən "xüsusi dövri icmal" proseduru tətbiq olunmalı, icmal Nazirlər Komitəsi yanında fəaliyyət göstərəcək, "xüsusi komitə" tərəfindən dinlənilməli, icmala dair komitə özünün rəy və tövsiyələrini bildirməli, müvafiq dövlətə suallar ünvanlamalıdır. Həmçinin, komitə milli insan hüquqları təsisatları və qeyri-hökumət təşkilatları tərəfindən təqdim edilən alternativ icmalı da nəzərdən keçirmək səlahiyyətinə malik olmalıdır.

Məhkəməyə ərizə axınının qarşısını almaq üçün milli orqanlar, xüsusilə də, məhkəmələr hüquq tətbiqetmə təcrübəsində Avropa Məhkəməsinin presedent hüququnu nəzərə almalı və Avropa Konvensiyasını birbaşa tətbiq etməlidirlər. AİHK beynəlxalq hüquqi təbiətinə görə özü icra olunan müqavilə olduğundan, onun milli hüquq tətbiq edən orqanlar tərəfindən birbaşa tətbiqinə heç bir manеə yoxdur.

Avropa Məhkəməsinin qərarları, bilavasitə və ya dolayısı ilə, bu və ya digər dərəcədə milli hüquqa təsir edir və bunun nəticəsində, dövlətdaxili səviyyədə müvafiq tədbirlər - həm qanunvericilik tədbirləri, məsələn, müvafiq qanunun qəbul edilməsi, yaxud müvafiq aktlarda dəyişikliklər edilməsi və s. həm də digər tədbirlər, məsələn, məhkəmə təcrübəsində dəyişikliklər edilməsi zəruridir.

Z.Əliyev daha sonra yazır: "Beləliklə, yuxarıda deyilənlərə yekun olaraq, qeyd edilməlidir ki, Konvensiyanın iştirakçı-dövlətləri Avropa Məhkəməsinin təcrübəsini daim izləməli, bu təcrübəyə zidd normativ aktlar qəbul etməməli və qüvvədə olan qanunvericiliklərinə müvafiq dəyişikliklər etməlidir. Bu isə, xüsusilə, AŞ-nın gənc üzvü olan, artıq əleyhinə bir neçə qərar çıxarılmış Azərbaycan üçün, xüsusilə, əhəmiyyətlidir. Həmçinin, hüquqi islahatların davam etdirilməsi, insan hüquq və azadlıqlarının təminat mexanizminin səmərəliliyinin artırılması üçün zəruridir. Xüsusilə, qanun layihələrinin Avropa Konvensiyasına və məhkəmənin presedent hüququna zidd olmaması, həmçinin, keyfiyyətli hüquqi ekspertizanın keçirilməsi zəruridir. Bunun üçün isə, yeni qəbul olunacaq qanunların Avropa Konvensiyasına və Avropa Məhkəməsinin presedent hüququna uyğunluğunun təmin edilməsi və yoxlanılması məqsədilə parlament yanında xüsusi bir qurumun (məsələn, müqayisəli qanunvericilik institutunun) yaradılması zəruridir. Hesab edirik ki, belə bir qurumun fəaliyyəti respublikamızda qanunvericilik sistemində mövcud qüsurların aradan qaldırılmasında və hüquq sisteminin təkmilləşdirilməsində əhəmiyyətli rolu olardı. Azərbaycan, hələ ki, Avropa Məhkəməsinin qərarlarından irəli gələn ümumi tədbirlər sırasında heç bir qanunvericilik tədbiri həyata keçirməmişdir. Düzdür, digər xarakterli ümumi tədbirlər görülsə də (məsələn, qərarların Azərbaycan dilində çap olunması və yayılması), qeyd etmək lazımdır ki, ümumi tədbirlərin ən səmərəlisi qanunvericilik tədbirləridir."

Z.Əliyevin fikrincə, ilk olaraq, AİHM-in qərarlarının səmərəli qaydada və vaxtında icrasını, qərardan irəli gələn bütün zəruri tədbirlərin (həm ədalətli kompensasiyanın ödənilməsi, həm fərdi, həm də ümumi tədbirlərin) həyata keçirilməsinin təmin edilməsi məqsədilə, "Avropa İnsan Hüquq Məhkəməsinin qərarlarının icrası haqqında" AR-ın qanununun qəbul olunması məqsədəmüvafiq olardı. Həmin qanunda AİHM-in qərarlarının icrasına, bilavasitə məsul olan qurumlar müəyyən edilməlidir.

Qanunvericiliyin, Avropa hüquq standartları baxımından, təkmilləşdirilməsinin zəruriliyinə və insan hüquqlarının müdafiəsinə dair illik məruzələrində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili də diqqəti cəlb etmiş və bu sahədə əməli fəaliyyət göstərmişdir. Müvəkkilin illik məruzələrindən göründüyü kimi, o, insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə qanunların qəbul edilməsinə və ya yenidən baxılmasına, həmçinin, insan hüquqları sahəsində beynəlxalq hüquqi aktlara AR-in qoşulmasına dair təkliflərlə parlamentə müraciət etmişdir. Məsələn, Müvəkkil AİHM-ə dair 12 və 14 saylı protokolların, təhsildə ayrı-seçkiliyin aradan qaldırılmasına dair UNESCO Konvensiyasının, işgəncələr əleyhinə BMT Konvensiyasının fakultativ protokolunun ratifikasiyasının sürətləndirilməsi ilə bağlı Milli Məclisə müraciət etmiş və nəticədə, qeyd olunan aktlar (12 saylı protokol istisna olunmaqla) təsdiq edilmişdir. Fikrimizcə, Ombudsman Təsisatı AİHM-in qərarlarının dövlət tərəfindən icrası prosesinə aktiv müdaxilə etməli və qərarın tam icra olunması üçün dövlətə tövsiyələr verməlidir. Məsələn, Ombudsman AİHM-in qərarından irəli gələn və bu qərarın vaxtında və effektiv icrası məqsədilə dövlətə, fərdi tədbirlərin (məsələn, Konvensiyanın müddəalarına zidd olaraq tutulmuş şəxsin azad edilməsi, ərizəçinin əfv edilməsi və s. yeri gəlmişkən, AR-ın İnsan Hüquqları üzrə Müvəkkilinin əfv məsələləri ilə bağlı AR Prezidentinə müraciət etmək hüquq var), həmçinin də, ümumi tədbirlərin (milli qanunvericiliyin, hüquq-tətbiqetmə praktikasının təkmilləşdirilməsi, dövlətdaxili qanunvericilik aktlarının Avropa Konvensiyasına, AŞ hüquq standartlarına uyğunlaşdırılması, insan hüquqları ilə bağlı yeni qanunların qəbulu və s.) həyata keçirilməsi ilə bağlı tövsiyələr verə bilər. Qeyd olunduğu kimi, Ombudsman qanunla, səlahiyyətinə aid olan bir sıra tədbirləri həyata keçirir. Fikrimizcə, bu fəaliyyətin bir hissəsi də, aidiyyəti dövlət qurumlarına müvafiq tövsiyələr verməklə, AİHM-in Azərbaycanla bağlı qərarlarının icrasına yönəlməlidir. Məsələn, bu sahədə fəaliyyətin daha uğurlu alınması üçün Müvəkkil AR-ın AİHM yanında səlahiyyətli nümayəndəsi ilə əməkdaşlıq edə bilər.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoruZ**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*




# Ümumxalq partiyası olan YAP böyük nüfuza malikdir



Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının S.Əsgərova - 85 (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi) ərazi ilk partiya təşkilatının növbəti iclası olub. Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev iclası giriş sözü ilə açaraq, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə 1992-ci ilin noyabrında yaradılan YAP-ın ötən dövrdə milli dövlətçiliyə və xalqa misilsiz xidmətlərlə zəngin şərəfli bir yol keçdiyini vurğulayıb. Nazir bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədri olduğu Partiyanın Cənubi Qafqazın ən güclü siyasi təşkilatı kimi cəmiyyətdə böyük nüfuza malik olduğunu bildirib. S.Babayev Ulu Öndərin ideyalarına dərin sədaqət ruhunda fəaliyyət göstərən YAP-ın ölkəmizin dinamik və hərtərəfli inkişafı proseslərində, daim ön sırada olaraq, fəal iştirak etdiyini diqqətə çatdırıb. S.Babayev bildirib ki, sıralarında 737 mindən çox üzvü birləşdirən YAP-ın S.Əsgərova - 85 ərazi ilk partiya təşkilatı da fəaliyyətini YAP prinsiplərinə uyğun qurub. Son bir ildə 450-yə yaxın nazirlik əməkdaşı müraciət edərək, YAP sıralarına qəbul edilib və hazırda nazirlik sistemində çalışanların mütləq əksəriyyəti partiyanın üzvüdür.

İclasda YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov çıxış edərək, vurğulayıb ki, YAP-ın öz sıralarını daim genişləndirməsi partiyaya cəmiyyətdə olan yüksək inam və etibarın göstəricisidir. Bunun əsasında partiyanın keçdiyi şərəfli yol, azərbaycançılıq əqidəsinə söykənərək, daim ölkəmizin hərtərəfli tərəqqisi və firavan gələcəyi üçün göstərdiyi xidmətlər dayanır. Təsadüfi deyil ki, bu gün YAP ümumxalq partiyası kimi böyük nüfuza malikdir. İclasda partiya sıralarına qəbul edilmiş 45 nəfərə üzvlük vəsiqələri təqdim edilib. Sonra nazirlik sistemində çalışanlardan daha 200-ə yaxın (o cümlədən S.Əsgərova - 85 ərazi ilk partiya təşkilatı üzrə 52) əməkdaşın YAP sıralarına daxil olmaq üçün ərizələri qəbul olunub.

*Nəzakət ƏLƏDDİNQIZI*

# "Son iclas" filmi YAP Pirallahı gəncləri tərəfindən maraqla qarşılanıb



***Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatı gənclər birliyinin təşkilatçılığı ilə 28 May Respublika Günü ilə əlaqədar Pirallahı Gənclər Mərkəzində ''Son iclas'' filmi nümayiş olunub. "Son iclas" bədii-sənədli filmi Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) son günlərində baş verən hadisələrdən bəhs edir. Ekran əsərində Cümhuriyyət qurucularının müstəqilliyimizin düşmənlərinə qarşı son anadək apardıqları qeyri-bərabər və ümidsiz, lakin dönməz və qətiyyətli mübarizə əks olunur.***

Filmin nümayişindən əvvəl YAP Pirallahı rayon təşkilatı gənclər birliyinin sədri Rüfət Əhmədov bildirib ki, xalqımızın şanlı tarixinə daxil olan 28 may 1918-ci il Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması günüdür. Çünki Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti istiqlaliyyətimizi elan edərək, xalqımızın müstəqillik əzmini nümayiş etdirmişdir. Bu tarixi xalqımızın milli oyanış və dirçəliş günü kimi də adlandırmaq olar. Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından, mühüm əhəmiyyət kəsb etmişdir. Əsrin əvvəlində yaradılmış müstəqil Azərbaycanın taleyinə uzunömürlülük yazılmayıbmış. İlk cümhuriyyətimizin doğuluşu tarixin dolaşıq vaxtına düşmüşdü. Müxtəlif maraqlarla ölkəyə yürüş edən xarici hərbi qüvvələrin çoxsaylı təzyiqləri nəticəsində, gənc dövlətin parlamenti 1920-ci il aprelin 27-də hökuməti təhvil verdi. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin 701 günlük şərəfli ömrünə son qoyuldu. Türk dünyasının ilk müstəqil dövləti süquta uğradı.

Lakin ruhu azad olan bir milləti heç kəs köləlikdə saxlaya bilməz. 1918-ci ilin mayından 70 il keçəndən sonra Azərbaycan xalqı yenidən ayağa qalxdı, öz haqqını-azadlığını, müstəqilliyini və bütövlüyünü tələb etdi. Bu yolda məhrumiyyətlərə düçar edildi, şəhidlər verdi, lakin yolundan dönmədi. 1993-cü ilin may-iyun aylarında hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarananda, xalqın çağırışı ilə Ümummilli Lider Heydər Əliyev ikinci dəfə hakimiyyətə gətirildi və Azərbaycan müstəqilliyinin yeni mərhələsinə qədəm qoydu.

Qeyd edilib ki, bu gün biz müstəqil, güclü, sürətlə inkişaf edən, dünya arenasında öz sözünü deyən müstəqil Azərbaycanda yaşayırıq və öz tariximizlə fəxr edirik. Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin hakimiyyətə gəlişi ilə dövlət müstəqilliyinin qorunub-möhkəmlənməsində, iqtisadiyyatın inkişafında, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artmasında yeni mərhələ başlanıb. Ulu Öndər Heydər Əliyevin ideyalarının gerçəkləşməsində, müstəqilliyimizin qorunmasında Prezident İlham Əliyevlə birgə Azərbaycan Respublikasının I Vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva da yaxından iştirak edir. Fondun vitse-prezidenti Leyla Əliyeva Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna xidmətlər göstərir.

Sonra "Son iclas" filminə baxış keçirilib və mövzu ətrafında müzakirələr aparılıb.

*Rövşən RƏSULOV*

# "Çelsi"nin qapıçısı: "Azarkeşlər Bakıdakı finaldan zövq alacaqlar"



"Finala vəsiqə qazandığımız üçün şadıq. Yarımfinalda "Ayntarxt"la hər iki oyunumuz çətin oldu. İndi son maneəni dəf etməliyik". Bu sözləri "Çelsi"nin qapıçısı Kepa Arrisabalaqa Avropa Liqasının finalında "Arsenal"la keçiriləcək oyun haqda danışarkən deyib. İspaniyalı qolkiper klubun rəsmi saytına açıqlamasında Bakıda keçiriləcək finalın maraqlı olacağını bildirib: "Düşünürəm ki, futbolçular və azarkeşlər finaldan zövq alacaqlar. Derbi və finalda hər şey baş verə bilər. Qalib olmaq üçün mübarizə aparacağıq. Kuboku götürsək, bu, "Çelsi"nin ən yaxşı qələbəsi olacaq".

Xatırladaq ki, "Çelsi" mayın 29-da Bakı Olimpiya Stadionunda "Arsenal"la qarşılaşacaq.

## ELAN

1992-ci il 30 dekabr tarixində BŞİH və Bələdiyyə Mülkiyyəti İdarəsi tərəfindən Əliyeva Leyla Cəmil qızına Pirallahı, 29-cu məhəllə, bina 14, mənzil 8 ünvanına verilmiş qeydiyyat vəsiqəsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

x x x

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Salayev Elgün Çingiz oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

x x x

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinin VI tədris ili tələbəsi Qurbanlı Əminə Əkbər qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600